

# DTX-dan intim videolarla şantaj edən şəbəkəyə qarşı əməliyyat

*Ölkə vətəndaşlarını intim videogörüntüləri ilə şantaj edən mütəşəkkil dəstə saxlanılıb. "Unikal" xəbər verir ki, bu barədə DTX-nin İctimai əlaqələr şöbəsi məlumat yayıb. 2021-ci il ərzində Azərbaycan Respublikası vətəndaşlarının intim videogörüntüləri ilə şantaj edilmələri, belə videomaterialların...*

Səh.2

UNİKAL

№47 (2085) 24 dekabr 2021-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru



# Elmar Məmmədyarovun başı böyük dardda!

## ABŞ-da açılan vergi davası eks-naziri hansı xoşagəlməzliklərlə üz-üzə qoyacaq?

*Bu günlərdə məlum oldu ki, Nyu-York Mellon Bankının (THE BANK OF NEW YORK MELLON) iddiası əsasında Nyu-York əyalət məhkəməsi (New York County Courts) Azərbaycanın keçmiş xarici işlər naziri Elmar Məmmədyarovun oğlu Emin Məmmədyarova qarşı vergi davası açıb.*

*Bildirilir ki, vergi davasına sabiq nazirin oğlunun adına aldığı 4.5 milyon dollarlıq mənzillərlə bağlı məlumatlar ictimailəşəndən sonra - 2020-ci ilin oktyabrında start verilib. Məlumata görə, iddia Riversayd bulvarı, Tramp-Pleysdəki binalarda alınmış mənzillərlə bağlıdır.*

*Xatırladaq ki, 2015-ci ilin yayında nazirin böyük oğlu Emin Məmmədyarov Manhettendə ümumilikdə 4,2 mln. ABŞ dollarından bir qədər çox nağd pul ödəməklə iki mənzil alıb.*

Səh.8

Səh.2



# Azərbaycan Fransaya nota verdi

## "Bu templə qiymət artımı getsə, maaş, pensiya və müavinət..."



*Məlum olduğu kimi, bir sıra sosial müavinətlərin və əməkhaqlarının qalxması ilə bağlı qərar verilib. Adətən ölkədə müavinətlərin, əməkhaqlarının artmasından sonra ölkədə bahalaşma müşahidə olunmağa başlayır. Bu səbəbdən də qarşıdakı dövrdə müxtəlif sahələr üzrə qiymət artımının olacağı gözlənilir.*

Səh.4

## Etibar Pirverdiyevin şirkəti ətrafında müəmma



*Bir müddət əvvəl məlumat yayılmışdı ki, "Azərenerji" ASC-nin sabiq prezidenti Etibar Pirverdiyevə məxsus "Azenco" ASC çətin günlərini yaşayır. Belə ki, şirkət əvvəlki kimi iri layihələrin icrasından məhrumdur. Buna səbəb isə Pirverdiyevin "işıq şefi" postunu itirməsidir.*

Səh.5

## QHT-lərin yeni layihələri vətəndaş cəmiyyətinə nə verəcək?



*Bütün dünyada QHT-lərin vətəndaş cəmiyyətinin inkişafında böyük rolu var. QHT-lər hüquqi dövlətin qurulması, qanunların hazırlanmasında yaxından iştirak edir. Azərbaycanda son illər QHT-lərin fəaliyyəti xeyli inkişaf edib. Elə son illərdə QHT-lərin dövlətdən dəstək alması bu inkişafa geniş şərait yaradıb. Bu günlərdə ölkəmizdə fəaliyyət göstərən QHT-lər yeni ildə layihələr həyata keçirmək...*

Səh.11

# "Pula görə mələk sifətinə girirlər, sonradan..." - Xuraman Şuşalı



***Müğənni Xuraman Şuşalı biznesini böyüdüb. Sənətçi bundan sonra toy və digər şənliklərin videoçəkilişi ilə də məşğul olacaq.***

Xuraman bu haqda "Xəbər-ətər" proqramında deyib. O bildirib ki, özü üçün prodakşın yaradıb:

"Əvvəl bunu etmirdim, ancaq dekor qururdum. İndi bütün təşkilatçılığı üzərimə götürürəm. Nə edim, qazanc yerimdir. Birdən qiymət üçün mələk sifətinə girən müştəri gəlir. Toy günü görürəm ki, heç də mələk deyilmiş. Başlayır mənfi aura verməyə".

# "5 övladım oldu, qalmadı" - Elnur



***"Verilişə məni övladım dünyaya gəlmədən əvvəl çağırdınız. Amma dedim ki, uşağım olandan sonra gələrəm. Efirdə ailə haqqında danışmağı sevmirəm".***

Bu sözləri müğənni Elnur Məmmədov "Günün sədası" proqramında deyib. Bu günlərdə ata olan sənətçi yaşadığı çətinliklərdən bəhs edib: "Dünyanı gəzdim, milyonlar tökdüm. Sadəcə bunun açıqlamasını bilmək üçün. Mənim üçün ismətli ailənin olması var-dövlətdir. Allah qarşısında baş əyəndə, deyirəm ki, şükür, mənə ismətli ailə nəsib etdin, doğrultdun. Mənə ömrümün axırına kimi övlad verməsən belə çox xoşbəxtəm. Çünki istəyərək seçdiyim ömür yoldaşım var. Amma yenə də hər dəfə Allahla danışanda dua edirdim ki, mənim də ailəmdə övladım olsun. Atam, anam mürvətimi görsün.

Dünyanı gəzib həkimlərə gedirdim. Azərbaycanda həkim yanına getmirdim. Çox üzr istəyirəm, 5-ə yaxın övladım olub, qalmayıb. Qismətdir, taledir. Övladım dünyaya gələnə qədər də beşik almağa ürək etmirdim. Deyirdim, alaram, bu da boşa gedər. Amma bir həkim məni doğru yönəltdi. Hər bir şeyə qədər yoxlanıldı. Cüzi bir problemdən 10 ildir əziyyət çəkirmişəm.

Milyonlar tökdüm, elə məqama gəldim ki... Pandemiyada müğənnilər çökdü. Dilə gətirmədim, amma o deməkd eyil normal idim. Həkimə zəng etdim ki, Allaha buraxdım".

Qeyd edək ki, Elnur 2011-ci ildə ailə həyatı qurub. Müğənni bu ilin noyabrında ata olub. O, övladına İnam adını verib.

# "Get dana saxla, əkin et pul qazan, məndən istəmə" - Yusif Mustafayev



***"Qocalıram, atam da yaşadı, qocaldı, dünyasını dəyişdi. Çalışıb qorxmayasan. Həyatda elə bir arzum yoxdur ki, ona çatmayım. Amma həyat şirindir".***

Bu sözləri Əməkdar artist Yusif Mustafayev "Xəbər-ətər" proqramında deyib. Müğənni artıq mahnı janrını dəyişdiyini deyib. O bildirib ki, yaşlandığı üçün şən mahnılar oxumur:

"İstəyirəm gedim o dünyadan baxım görüm, mənsiz həyat necədir? Ailəm necə yaşayır? Yaşıma uyğun mahnılar seçməyə başlamışam. Yatmıram, gündə 2-3 saat yuxu yatıram. Qardaşım oğlu da oxuyur, yerimə onu hazırlayıram. İmkan, şərait hər şeyim var. Göydə Allah, yerdə dövlət hər şey verib mənə. Hamımız "pilingi" oxuyaq? Adam özünə qapılmalı, həyatı dərk etməlidir.

İndi hər şərait var, şükür edək. Adam var deyir ki, kasıbam, yardım et. Deyirəm, gəl filan işim var gör, ikiqat pul verim. Qayıdır ki, sənin üçün fəhlə işləyim? Bu yaşımda toya gedirəm, biri gəlib "azzar, zəhrimar" deyir. İşimin xətrinə yola verirəm. Könlü balıq istəyən, çayın kənarına getməlidir.

Bir çəkilişə getmişdim, beş-on nəfər dayanmışdı, qayıtdı ki, bizə pul payla. Dedim, sənə 10 manat verdim, haran düzələcək? Get dana saxla, əkin-biçin et, pul qazan. Çörəyi məndən yox, Allahdan istə".

# Xumar Qədimovadan canlı efirdə qeyri-adi hərəkət



***Əməkdar artist Xumar Qədimova qeyri-adi addımı ilə diqqət çəkib.***

"Unikal" baku.ws-ə istinadən xəbər verir ki, aparıcı Zaur Nəbioğlunun "1 dəqiqə" proqramına qonaq olan ifaçı sevgidən və xəyanətdən danışıb.

Qədimova çox qısqanc olduğunu bildirib. Bunu obrazlı şəkildə ifadə etmək üçün isə canlı efirdə qum saatını sındırıb.

# "Allah qısqancdır, kimi ondan çox sevsən..." - Nüşabə Ələsgərli



***Əməkdar artist Nüşabə Ələsgərli "Tam vaxtıdır" verilişində qonaq olub.***

"Unikal" axşam.az-a istinadən xəbər verir ki, sənətçi proqramda Allah olan sevgisindən danışıb: "Bütün sevgilərin başında Allaha olan məhəbbətdir. Allah qısqancdır, icazə vermir ondan çox kimisə sevəsən. Hər zaman uşaqlara və hamıya deyirəm ki, sizi yox, onu sevirəm. O birdən qısqanar və kimisə apar. Elə sevginin də ən möhtəşəmi Allaha olandır".

# Samirə Əfəndi minidə göz qamaşdırdı



***Müğənni Samirə Əfəndi Yeni İl obrazı ilə bütün diqqətləri öz üzərinə çəkib.***

"Unikal" Publika.az-a istinadən xəbər verir ki, 30 yaşlı sənətçi məclislərin birində çəkilən fotolarını instaqramda paylaşıb.

Ulduz dekolteli libası ilə göz qamaşdırıb.



# Bu il 211 məktəbə direktor təyin olunub

***Dövlət ümumi təhsil müəssisələrinə direktor vəzifəsinə işə qəbul üzrə müsabiqə nəticəsində 211 nəfər direktor vəzifəsinə təyin edilib.***

Bu barədə "Unikal"a Təhsil Nazirliyindən məlumat verilib. Qeyd olunub ki, hazırda direktor vəzifəsinə işə qəbul üzrə müsahibələr davam edir. Müsahibə mərhələsində namizədlərin peşə üzrə nəzəri bilikləri, idarəetmə bacarıqları, dünyagörüşü və şəxsi keyfiyyətləri yoxlanılır.

Müsahibələr Təhsil Nazirliyinin rəhbər şəxslərindən ibarət komissiya üzvlərinin iştirakı ilə həftədə 2 gün keçirilir. Hər müsahibə gününün sonunda nazirliyin rəsmi internet səhifəsindəki müvafiq bölmədə (https://edu.gov.az/az/key-services/diqmusahibe-neticeleri) müsahibədə iştirak etmiş namizədlərin nəticələri elan edilir və onların şəxsi səhifələrinə göndərilir.

Müsahibələrin növbəti 3 ay ərzində davam edəcəyi nəzərdə tutulur.

Qeyd edək ki, bu ilin iyun ayının sonundan etibarən dövlət ümumi təhsil müəssisələrinə direktor vəzifəsinə işə qəbul üzrə müsabiqənin müsahibə mərhələsinə start verilib. Ümumi təhsil müəssisələrində direktor vəzifəsinə işə qəbul üzrə müsabiqənin keçirilməsində əsas məqsəd prosesi mərkəzləşdirilmiş qaydada həyata keçirməklə şəffaflığın təmin olunması və sağlam rəqabət mühitinin yaradılmasıdır.

# Dövlət Komitəsi məcburi köçkünün mənzilini təmir edib

***Tərtər rayonunun Çaylı kəndində Laçın rayonundan məcburi köçkün Mahmudov Şəhriyar Mahmud oğlunun 5 nəfər ailə üzvü ilə birlikdə müvəqqəti məskunlaşdığı, ümumi yaşayış sahəsi 99.3 kvadrat metr olan fərdi evdə 15 sentyabr 2021-ci ildə yanğın baş verib.***



"Unikal" xəbər verir ki, Dövlət Komitəsinin nümayəndələri hadisə yerində olub, 4 otaqlı fərdi evin içərisindəki əşyalarla birlikdə yanaraq yararsız vəziyyətə düşdüyünü qeydə alıblar. 22 sentyabr 2021-ci ildə Dövlət Komitəsi tərəfindən evin təmirinə başlanılıb. Yanmış otaqların döşəməsi və tavanı, qap və pəncərələri yenilənib, divarlar oboyla üzlənib, dam örtüyünə rəngli metal təbəqələr vurulub, evin ətrafında səkilər betonlanıb. Ev tam təmir olunmuş vəziyyətdə ailəyə təhvil verilib.

Qeyd edək ki, Şəhriyar Mahmudovun qardaşı Bəxtiyar Mahmudov 21 fevral 2021-ci ildə Suqovuşanda mina partlaması nəticəsində həlak olub.

# Elmar Məmmədyarovun başı böyük dərddə!

## ABŞ-da açılan vergi davası eks-naziri hansı xoşagəlməzliklərlə üz-üzə qoyacaq?

***Bu günlərdə məlum oldu ki, Nyu-York Mellon Bankının (THE BANK OF NEW YORK MELLON) iddiası əsasında Nyu-York əyalət məhkəməsi (New York County Courts) Azərbaycanın keçmiş xarici işlər naziri Elmar Məmmədyarovun oğlu Emin Məmmədyarova qarşı vergi davası açıb.***

Bildirilir ki, vergi davasına sabiq nazirin oğlunun adına aldığı 4.5 milyon dollarlıq mənzillərlə bağlı məlumatlar ictimailəşəndən sonra - 2020-ci ilin oktyabrında start verilib. Məlumata görə, iddia Riversayd bulvarı, Tramp-Pleysdəki binalarda alınmış mənzillərlə bağlıdır.

Xatırladaq ki, 2015-ci ilin yayında nazirin böyük oğlu Emin Məmmədyarov Manhettendə ümumilikdə 4,2 mln. ABŞ dollarından bir qədər çox nağd pul ödəməklə iki mənzil alıb.

Bununla bağlı mətbuatda keçən ilin sonlarında xəbər yayılandan sonra Azərbaycan Xarici İşlər Nazirliyinin sözçüsü Leyla Abdullayeva açıqlama verərək, bunun nazirin şəxsi işi olduğunu bildirmişdi: "Xarici işlər nazirinin və nazirlikdə işləyən şəxslərin şəxsi məsələsini şərh edə bilmərəm".

Sonradan isə Elmar Məmmədyarov özü də bu barədə danışmış, sabiq sözçüsü ilə eyni fikiri dilə gətirmişdi (buradan anlamaq olar ki, L.Abdullayevanın məlum açıqlamasını da əslində elə eks-nazirin özü diqtə edib). Belə ki, Məmmədyarov illik maaşı 30 min manat olduğu halda ABŞ-da milyonlarla dollar dəyərində mənzil almasını onun "şəxsi işi" olduğunu bildirmişdi. Ən əsası isə əlavə etmişdi ki, mənzillərə görə ödənən pulun mənbəyi şəffafdır. Əks halda, onu ABŞ-da ciddi sorğusuala çəkərdilər: "Mən də təkrar edirəm - bu, şəxsi məsələdir. Mənim şəxsi işimdir də. Siz bank deyilsiniz məndən tələb edəsiniz ki, haradan pul almışam, qazanmışam, necə almışam və s. Ona görə ən asan diplomatik cavab verirəm ki, bu, şəxsi məsələdir. Amma inandırım sizi, Amerika sistemində belədir ki, orda nədənsə şübhələnsəydilər, bir sent, bir qəpik, bir manat belə götürməzdilər. Mən nazir olmazdan əvvəl 1983-cü ildən XİN-də işləmişəm, 12 il ABŞ-da işləmişəm. Nazir olmazdan öncə başqa qazancım yox idi? Yüz yol var ev almaq üçün, kredit, ipoteka ilə almaq olardı, nə qədər imkan var. Amma yenə deyirəm: şübhə olsaydı, Amerikada məni parçalayardılar. Bank cavabdehdir çünki, o pul haradan, necə gəlir. Şübhə olmayanda imkan yaradırlar..."



Məmmədyarovun özünəarxayın şəkildə dediklərinin əslində göz boyamaq olduğu ortaya çıxıb. Rahat şəkildə "Şübhə olsaydı, Amerikada məni parçalayardılar" söyləyən Elmar müəllim artıq narahat ola bilər: şübhə var və belə görünür ki, onu öz təbirincə yazsaq, "parçalayacaqlar". Birləşmiş Ştatlar məhkəməsinin durduğu yerdə vergi davası açmasını düşünmək sadəlövhlük olardı. Aydın görünür ki, sabiq nazirlə bağlı şübhə yetərincə qüvvətlidir, bu səbəbdən də məsələ məhkəməyədək gedib çıxıb!

Əslində isə təəccüblü heç nə yoxdur: DTX tərəfindən XİN-də vəzifəli şəxslərin öz səlahiyyətlərindən qəsdən qulluq mənafeyinə zidd olaraq istifadə edib dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vuran çoxsaylı əməllərə yol verməlari ilə bağlı ötən ilin mayında həyata keçirilən istintaq-əməliyyat tədbirləri ortaya ciddi korrupsiya və rüşvət faktları çıxardı. Məlum oldu ki, ölkənin ən strateji dövlət qurumlarından birində - xarici siyasət idarəsində biriləri öz vəzifə borcunu unudaraq faktiki şəkildə yeyinti ilə, mənimsəmə ilə, obrazlı desək, "qaz vurub qazan doldurmaqla" məşğul olub. Bütün bu qanunsuz əməllərin Məmmədyarovun xəbəri olmadan gerçəkləşməsi, əlbəttə ki, mümkünsüzdür. Aydın məsələdir ki, o, nazirlikdə kök salan rüşvət və korrupsiyaya biləərəkdən göz yumub, "yaşıl işıq" yandırıb. Səbəbini təxmin eləmək üçün isə xüsusi istedad sahibi olmaq tələb edilmir - həmin yeyintilərdən, mənimsəmələrdən, rüşvətlərdən eks-nazirə də pay çatıb. Əks-halda illik 30 min manat maaşla Elmar müəllim ABŞ-da milyonlarla dollarlıq mülkləri necə ala bilərdi?!

Sabiq nazirə qarşı ABŞ-dakı vergi davasının necə nəticələnəcəyini zaman göstərəcək. Hələliksə onu deyək ki, bu, Məmmədyarova yalnız Birləşmiş Ştatlarda yox Azərbaycanda da xeyli başağrısı gətirəcək. Əvvəla, onun adı mətbuatın gündəminə gəlməkdə davam edəcək, ikincisi isə XİN-də aşkarlanan ciddi qanunsuzluqlar səbəbilə Elmar müəllimin özünün nə üçün hüquqi müstəvidə cəzalandırılmadığı yönündə müzakirələri təzədən alovlandıracaq.

Halbuki, zərrə qədər şübhə yoxdur ki, eks-nazir bunun tamamilə əksini istəyərdi: unudulmaq, yaddan çıxmaq və beləcə, həbs riskindən, cinayət işi təhlükəsindən biryolluq sovuşmaq...

***Toğrul Əliyev***

# Deputat kazino təklifindən danışdı

***Hər il Azərbaycandan çıxan milyonlarla vəsait xarici kazino oyunlarında uduzulur. Ölkədə kazino fəaliyyəti qadağan edilsə də, bu sahə ilə məşğul olanlar onlayn yolla da bu oyunlarda iştirak edir. Bunu millət vəkili Qüdrət Həsənquliyev deyib. Bildirib ki, vətəndaşın pulu hesabına milyonlarla manat pul qazanan şirkətlər isə bir qəpik də dövlətə vergi ödəmir. Millət vəkili kazinolarla bağlı təklifini də səsləndirib.***

Vətəndaşlar təkcə internet üzərindən xarici lotereya təşkilatçılarına hər il təqribi hesablamalara görə, 700 milyon manat pul uduzur. Bunu jurnalistlərə açıqlamasında millət vəkili Qüdrət Həsənquliyev deyib.

Millət vəkili bildirib ki, Azərbaycanda bu sahəyə marağı olan şəxslər ya onlayn üsulla kazinoda iştirak edirlər və ya başqa ölkələrə üz tuturlar. Gəlirli sahələrdən biri olan mərc oyunları ölkəmizdə bir çox hallarda onlayn təşkil edildiyindən dövlətə vergi ödənilmədən vəsait ölkədən çıxır.

Millət vəkilinin sözlərinə görə, lotereya oyunlarının təşkilində də ciddi problem var. Qüdrət Həsənquliyev bildirib ki, inamın itməsi lotereya həvəskarlarının da başqa ölkələrə üz tutmasına səbəb olub. Qüdrət Həsənquliyev onu da bildirib ki, bu sahədə atılacaq addımlar vəsaitin ölkədə qalmasını təmin etməklə yanaşı gələcəkdə turizmin inkişafı üçün geniş imkanlar açacar. Millət vəkili kazinolarla bağlı təklifini də səsləndirib. Bildirib ki, Bakıda Böyük Zirə və Nargin adasında, turizm məkanları kimi tanınan Quba, Qəbələ və ya Masallıda da belə məkanlar təşkil eləmək olar.



# "Laçın dəhlizi" məsələsi yeni gərginlik ocağı yarada bilər

***Rusiyanın Peterburq şəhərində keçiriləcək MDB növbədənkənar sammitində Azərbaycan və Ermənistan liderlərinin Rusiyanın vasitəçiliyi ilə bir araya gəlməsi istisna deyil. Rusiyada keçiriləcək bu görüşdə əldə olunan razılaşmaların yerinə yetirilməsi və sərhədlərin delimitasiyası müzakirə ediləcək.***

Bu barədə “Unikal”a açıqlama verən MCP sədrinin müavini, politoloq Məhəmməd Əsədullazadə deyib ki, bu görüş sadəcə, sıradan bir görüşdü və Moskvanın təşkil etdiyi görüşdə müsbət irəliləyişlər reallaşmır. Onun sözlərinə görə, Peterburq görüşü də belə bir görüş olacaq:



“MDB-nin bu sammitində Putin Qərbə mesaj verəcək və əsasən bu konfransda Kreml öz strategiyasını ortaya qoyacaq. Rusiya sülhməramlı qüvvələrinin Qarabağda fəaliyyəti Azərbaycanın təhlükəsizliyini və suverenliyini təhdid edəcək bir mərhələyə keçib. İlk növbədə Rusiya sülhməramlı adlanan hərbiçiləri xarici ölkə vətəndaşlarının "Laçın" dəhlizindən Azərbaycan ərazisinə daxil olmasının qarşısını almalıdır.

Göründüyü kimi, "sülhməramlılar" belə qanunsuz səfərlərin nəinki qarşısını alır, Fransanın prezidentliyə namizədinin Azərbaycan ərazisinə keçməsinə şərait yaradır. Bu, Azərbaycana qarşı separatizmə dəstək verməkdir və burada sülhməramlı qüvvələrin rolu daha da qabarıqdır”.

Politoloq onu da bildirib ki, artıq Azərbaycan Laçın dəhlizində post qurmalıdır: “Prezidentliyə namizədin "Laçın" dəhlizindən keçib Xankəndinə gəlməsi birbaşa Moskvanın razılığı ilə həyata keçirilib. Çünki bu sıradan səfər deyil, Rusiya müdafiə nazirliyinin icazəsi və siyasi təlimatı olmasa belə bir səfər reallaşmazdı. Azərbaycan Rusiya ilə bu məsələni ciddi şəkildə müzakirə etməlidir. Rusiya çalışır ki, Qarabağda ermənilər subyekt kimi tanınsın. Azərbaycanın razılığı olmadan qanunsuz bu səfərlər və buna Rusiya hərbiçilərinin şərait yaratması göstərir ki, sülhməramlı qüvvələrin Qarabağdan çıxarılması üçün 4 ildən sonra hərəkətə keçməliyik. Azərbaycan Ermənistandan da belə səfərlərin təşkilinə son verilməsini tələb etməlidir. Bu normallaşma prosesinə kölgə salır. Fransa prezidentliyinə namizədin Qarabağa qanunsuz səfəri son günlər Makron və Putin arasında telefon danışıqları zamanı razılaşdırılması mümkündür”.

Müsahibimiz onu da nəzərə çatdırıb ki, Rusiya sülhməramlı qüvvələrinin Qarabağda fəaliyyəti Azərbaycanın təhlükəsizliyini və suverenliyini təhdid edəcək bir mərhələyə keçib. Onun fikrincə, ilk növbədə Rusiya sülhməramlı adlanan hərbiçiləri xarici ölkə vətəndaşlarının "Laçın" dəhlizindən Azərbaycan ərazisinə daxil olmasının qarşısını almalıdır: “Göründüyü kimi, "sülhməramlılar" belə qanunsuz səfərlərin nəinki qarşısını alır, Fransanın prezidentliyə namizədinin Azərbaycan ərazisinə keçməsinə şərait yaradır. Bu, Azərbaycana qarşı separatizmə dəstək verməkdir və burada sülhməramlı qüvvələrin rolu daha da qabarıqdır.

Azərbaycan Ermənistandan da belə səfərlərin təşkilinə son verilməsini tələb etməlidir. Bu normallaşma prosesinə kölgə salır.

Fransa prezidentliyə namizədin Qarabağa qanunsuz səfəri son günlər Makron və Putin arasında telefon danışıqlarında razılaşdırılması mümkündür”.

Atlas Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu deyib ki, Azərbaycan prezidenti ötən həftə Brüsseldə demişdi ki, Zəngəzurda dəhliz olmayacaqsa, Laçında da olmayacaq və Azərbaycan sərhəd, gömrük xidməti sərhədin Laçın istiqamətində yerləşəcək. Onun sözlərinə görə, bu gün də xəbər yayılıb ki, Fransa prezidentliyinə namizəd Valeri Pekres Laçın dəhlizi üzərindən Qarabağa qanunsuz səfər edib: “Rusiyalı hərbçilər Laçın dəhlizindən kimi gəldi buraxırlar, veclərinə də deyil. Əlbəttə, Azərbaycan Xarici İşlər Nazirliyi Valeri Pekresi arzuolunmaz şəxs elan edə bilər. Ancaq bu çıxış yolu deyil. Laçın dəhlizini nəzarətə götürmək lazımdır ki, Valeri Pekres kimi şəxslər Azərbaycanın icazəsi olmadan ərazimizə daxil olub erməni separatçıları ilə görüşə bilməsinlər. Əks halda Laçın dəhlizi başımızı hələ çox ağrıdacaq. Fransa prezidentliyinə namizədin ardınca amerikalı konqresmenlər, rusiyalı deputatlar və daha kimlər Azərbaycana qanunsuz daxil olacaqlar. Elə ermənilərin də məqsədi odur ki, Azərbaycan Xarici İşlər Nazirliyinin “qara dəftərindəki” isimlərin sayı artsın və bununla müxtəli dövlətlərlə münasibətlərdə gərginliklər yaşayaq. Birdən həmin o Pekres Fransa prezidenti seçildi, rəsmi Bakı onun legitimliyini tanımayacaqmı və Fransa ilə münasibətlərə son qoyacaqmı? Elə ermənilər də bunu arzulayır. Odur ki, bizim bir nömrəli vəzifəmiz Laçın dəhlizini nəzarətə almaq olmalıdır və bu kommunikasiya xətlərinin açılmasından əvvəl baş verməlidir”.

Qeyd edək ki, Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan bildirib ki, erməni tərəfi regional məsələləri müzakirə etmək üçün həm Bakıya, həm də Ankaraya səfər etməyə hazırdır. Armen Qriqoryan eyni zamanda, Azərbaycan və Türkiyə nümayəndə heyətlərini İrəvanda qəbul etməyə hazır olduqlarını da səsləndirib. O qeyd edib ki, Ermənistan tərəfi regional məsələlər üzrə işləməyə və müzakirə təşkil etməyə hazırdır. Armen Qriqoryanın bu açıqlaması nəyə hesablanıb?

Elxan Şahinoğlunun sözlərinə görə, birincisi, məlumdur ki, Moskvadan sonra “3+3 platformasının” növbəti görüşü Ankarada keçiriləcək: “Ermənistan təmsilçisi Ankaraya gedəcək. Ona görə də Ermənistan hökuməti Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan vasitəsilə indidən erməni cəmiyyətinə mesaj yollayır ki, Ankaraya gedəcəklər. İkincisi, Armen Qriqoryanın mesajı həm də beynəlxalq aləmədir, özləri haqqında müsbət imici formalaşdırmağa çalışırlar. Demək istəyirlər ki, müharibədə Azərbaycana məğlub olmalarına və xeyli itki vermələrinə baxmayaraq, qonşularıyla birbaşa dialoqa hazırdılar. Əgər İrəvan Bakı ilə birbaşa dialoqa hazır olduğunu nümayiş etdirirsə, bundan faydalanmaq olar. Rusiyanın vasitəçilikdə inhisarçı mövqeyini azaltmaqda fayda var. Ona görə birbaşa dialoq imkanlarından da istifadə etmək lazımdır”.

***Z.Məmmədli***



## Mikayıl Cabbarovdan inflyasiya ilə bağlı açıqlama

***”İstehlak qiymətlərinin suni artımına yol verə bilən addımların qarşısının alınması istiqamətdə fəaliyyət gücləndirilib. 2022-ci ildə bu bizim prioritetimiz olacaq”.***

”Unikal” xəbər verir ki, bunu Azərbaycan iqtisadiyyat naziri Mikayıl Cabbarov deyib. ”Bizi iqtisadi, əhalinin sosial rifahı nöqteyi nəzərdən narahat edən məsələlər var. Bu, inflyasiya prosesləridir. İnflyasiya prosesləri ilk növbədə əhalinin gəlirinin dəyərini azaldır”, - M. Cabbarov bildirib.

Onun sözlərinə görə, Azərbaycan qlobal iqtisadiyyata inteqrasiya etmiş ölkədir: ”Yəni bu o deməkdir ki, qlobal iqtisadiyyatda inflyasiya prosesləri gedərkən, təbii olaraq bu, Azərbaycanda da öz əksini tapır. 2021-ci ildə ən sürətlə inflyasiya gedən sektorlar qida sahəsidir, müxtəlif tikinti materiallarıdır, xammaldır və s.. Bu məhsulların xüsusilə Azərbaycanda istehsalı azdır və ya istehsal edilmir, onların idxalından asılıyıq. Bu birabaşa olaraq qiymət artımının daxili bazara ötürülməsidir. Burada təbii olaraq hökumətin əlində o qədər də çox alət yoxdur. Biz çalışırıq ki, sosial əhəmiyyət kəsb edən məhsullara görə, yaxud da sosial müdafiə nəzərindən həssas olan təbəqələrə xüsusi yanaşma tətbiq edilsin. Dünya bazarlarında son iki ildə taxılın qiyməti təxminən 45-50 % artıb. Biz kifayət qədər böyük həcmdə taxıl idxal edirik. Bu strateji məhsulun qiymətinin artımının qarşısını almaq üçün dövlət tərəfindən subsidiya verilir”.

Azərbaycan Mərkəzi Bankın açıqlamasında əsasən, ölkədə bu il orta illik inflyasiya 6,3-6,6 %, illik inflyasiya isə 11,4-11,9 % səviyyəsində gözlənilir. Baza proqnozuna görə inflyasiya prosesləri növbəti ilin birinci rübündən başlayaraq stabilləşəcək və ilin ikinci yarısından başlayaraq inflyasiya hədəf diapazonunun yuxarı həddinə doğru hərəkət edəcək.

Rəsmi statistikaya görə, noyabrda aylıq inflyasiya 1,5 %, 12 aylıq inflyasiya isə 11,1 % olub. Orta illik inflyasiya yanvar-noyabr aylarında 6,2 %, orta illik baza inflyasiya isə 3,9 % təşkil edib. İnflyasiyanın yüksəlməsi bütün məhsul və xidmət alt qrupları üzrə davam edir.

Noyabrda ərzaq məhsulları üzrə qiymət indeksi ötən ayla müqayisədə 1,9 % yüksəlib, illik ərzaq inflyasiyası 14,9 % təşkil edib. Orta illik ərzaq inflyasiyası isə yanvar-noyabr aylarında 7,4 % olub.

Qeyri-ərzaq məhsulları üzrə qiymətlər noyabrda ötən ayla müqayisədə 0,5 %, son 1 ildə 7,1 % yüksəlib. Yanvar-noyabr aylarında orta illik qeyri-ərzaq inflyasiyası 4,8 % olub.

Xidmətlər noyabrda 1,6 %, son 1 ildə 9,1 % bahalaşıb. Orta illik xidmət inflyasiyası yanvar-noyabrda 5,4 % təşkil edib. Xidmətlər üzrə inflyasiyaya dövlət tənzimlənməsi tətbiq edilən qiymətlərin liberallaşdırılması amilinin təsirləri davam edir.

# İlham Əliyev 2022-ci ilin dövlət büdcəsini təsdiqlədi



***Prezident İlham Əliyev "2022-ci ilin dövlət büdcəsi haqqında" qanunu təsdiqləyib.***

"Unikal" xəbər verir ki, 2022-ci il dövlət büdcəsinin gəlirləri 26 816 000,0 min manat, xərcləri 29 879 000,0 min manat (o cümlədən, mərkəzləşdirilmiş gəlirləri 25 868 444,0 min manat, yerli gəlirləri 947 556,0 min manat, mərkəzləşdirilmiş xərcləri 28 893 988,0 min manat, yerli xərcləri 985 012,0 min manat) məbləğində təsdiq edilib.

# Prezident hərbçilərin maaşını artırdı

***Prezident İlham Əliyev Azərbaycan Respublikası Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması barədə fərman imzalayıb.***

"Unikal" xəbər verir ki, "İşğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət edən hərbi qulluqçularının aylıq vəzifə maaşlarına Azərbaycan Respublikası Prezidentinin əlavəsinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 iyun tarixli 2727 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarına Azərbaycan Respublikası Prezidentinin əlavəsinin müəyyən edildiyini nəzərə alaraq, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin həmin əlavənin şamil olunmadığı həqiqi hərbi xidmət hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları və Azərbaycan Respublikası Müdafiə Nazirliyinin əməliyyat briqadalarının və əlahiddə ümumqoşun ordusunun tabeliyində olan xüsusi təyinatlı briqadaların hərbi qulluqçuları istisna olmaqla) aylıq vəzifə maaşlarına həmin maaşın 20 faizi məbləğində əlavə müəyyən edilib.

# DİN əməkdaşlarının maaşı artırıldı




***Prezident İlham Əliyev Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında fərman imzalayıb.***

"Unikal" xəbər verir ki, fərmanda deyilir:

"1. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarına həmin maaşın 20 faizi məbləğində əlavə müəyyən edilsin.

2. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları orta hesabla 20 faiz artırılsın.

Həmçinin Prezident İlham Əliyev Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq pul təminatının və dövlət

# DTX-dan intim videolarla şantaj edən səbəkəyə qarşı əməliyyat

***Ölkə vətəndaşlarını intim videogörüntüləri ilə şantaj edən mütəşəkkil dəstə saxlanılıb.***




"Unikal" xəbər verir ki, bu barədə DTX-nin İctimai əlaqələr şöbəsi məlumat yayıb. 2021-ci il ərzində Azərbaycan Respublikası vətəndaşlarının intim videogörüntüləri ilə şantaj edilmələri, belə videomaterialların müxtəlif sosial şəbəkələr vasitəsilə yayılmasının təşkil edilməsi barədə daxil olmuş məlumatlar Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən araşdırılmışdır.

Faktlarla bağlı DTX-nin İstintaq baş idarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 182.3.1, 182.3.2 (mütəşəkkil dəstə tərəfindən zərərçəkmiş şəxslər və onların yaxın qohumları haqqında rüsvayedici məlumatlar yayma hədəsi ilə külli miqdarda pul vəsaitlərinin tələb edilməsi), 272.2.1 və 272.2.2-ci (texniki vasitələrdən istifadə etməklə kompüter məlumatlarının təkrar ələ keçirilməsi) maddələri ilə başlanılmış cinayət işi üzrə istintaq qrupu yaradılmış, kompleks istintaq-əməliyyat və əməliyyat-texniki tədbirləri həyata keçirilmişdir.

Müəyyən edilmişdir ki, mütəşəkkil dəstə üzvləri "Facebook" sosial şəbəkəsində yaratdıqları saxta hesablar vasitəsilə müxtəlif Azərbaycan Respublikasının vətəndaşlarına məxsus hesablara videogörüntülü zənglər edərək intim xarakterli davranışlara sövq etməyə yönələn hərəkətlər etmiş, texniki vasitələrdən istifadə edilməklə xüsusi proqram təminatları ilə zəng edən və zəng qəbul edən tərəflərin qarşılıqlı əks olunduğu ekran pəncərəsinin videoçəkilişini həyata keçirmiş, "Facebook Messenger" və "WhatsApp" tətbiqləri vasitəsilə həmin vətəndaşlarla əlaqə yaradıb onların və yaxın qohumlarının barəsində rüsvayedici materialları nümayiş etdirib yayma hədəsi ilə külli miqdarda pul vəsaitləri tələb edərək beynəlxalq pul köçürmə sistemləri vasitəsilə çoxsaylı hesablara göndərilməsini təmin etmişlər.

Genişmiqyaslı araşdırma tədbirləri ilə ölkə hüdudlarından kənarda olan cinayətkar şəbəkə üzvlərinin istifadəsində olan cihazların internet şəbəkəsinə qoşulduğu İP-ünvanları və digər abunəçi məlumatları əldə edilmiş, kibercinayətkarlığa dair beynəlxalq konvensiyaların müddəalarına istinadən həmin İP-ünvanları üzrə məlumatların müvafiq dövlətlərin aidiyyəti strukturları vasitəsilə təxirəsalınmaz mühafizəsi təmin edilmiş, cinayətkar şəbəkəyə daxil olan 32 nəfərin şəxsiyyəti təsbit edilərək texniki izlər və pul köçürmələri əsasında davam edən cinayət əməllərindən 200 nəfərdən artıq Azərbaycan Respublikası vətəndaşının zərər çəkdiyi məlum olmuşdur.

Cinayət işi üzrə beynəlxalq hüquqi yardım prosedurları çərçivəsində cinayət əməllərinin təşkilatçılarının Bolqarıstan Respublikasında məskunlaşdığı müəyyən edilərək Bolqarıstan Respublikasının hüquq mühafizə orqanları ilə birgə həmin ölkənin Silistra əyalətində yerləşən ünvanlarda axtarış, dindirmə və digər intensiv istintaq hərəkətləri keçirilmişdir. Cinayət əməllərinin təşkilatçıları, icraçıları və vasitəçiləri cinayət başında ifşa edilmiş, Azərbaycan və digər xarici ölkə vətəndaşlarının şantaj edildiyinə dəlalət edən videomateriallar, səsli mesajlar və yazışmaların olduğu çoxsaylı kompüter, mobil telefon və texniki avadanlıqlar götürülməklə DTX-də aparılan cinayət işi materiallarına əlavə edilmiş, çoxsaylı sosial şəbəkə hesablarındakı videomateriallara kənardan daxilolma imkanları məhdudlaşdırılmaqla davam edən cinayət əməllərinin qarşısı alınmışdır.

Cinayət əməlləri ifşa edilmiş xarici ölkə vətəndaşları Gyurdzhan Stoyanov, Tezdzhan Stoyanov, Sevinch Niyazi və digərləri təqsirləndirilən şəxs qismində cinayət məsuliyyətinə cəlb edilməklə, barələrində məhkəmə qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir. Hazırda beynəlxalq hüquqi prosedur tədbirlər yerinə yetirilməkdədir. Cinayət işi üzrə araşdırmalar davam edir.

***İnformasiya şöbəsi***

# Azərbaycan Fransaya nota verdi

***Dekabrın 22-də Fransanın İl-dö-Frans regionunun prezidenti, Fransada keçiriləcək prezident seçkilərinə Respublikaçılar partiyasının namizədi Valeri Pekrez Azərbaycan Respublikasının Xankəndi şəhərinə qanunsuz səfər edib.***

Bu barədə "Unikal"a Azərbaycan Xarici İşlər Nazirliyindən məlumat verilib. Seçkiqabağı kampaniya çərçivəsində digər fransız siyasətçilərin müşayiəti ilə həyata keçirilən bu səfər Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlməklə ölkənin milli qanunvericiliyinin pozulması halıdır.

Bununla əlaqədar, Fransanın ölkəmizdəki müvəqqəti işlər vəkili Xarici İşlər Nazirliyinə çağırılıb və ona etiraz notası təqdim edilib. Xarici İşlər Nazirliyi qanunsuz səfər ilə bağlı Fransa Səfirliyinə qəti etirazını bildirib və Azərbaycan Respublikasının müvafiq qanunlarının tələblərini ciddi şəkildə pozan sözügedən Fransa vətəndaşlarının milli qanunvericiliyimizə uyğun olaraq məsuliyyət daşıdığını xatırladıb.

Fransadan olan bir qrup siyasətçinin bu addımının Azərbaycan-Fransa ikitərəfli əlaqələrinə



ziyan vurduğu, eyni zamanda Fransanın regionda nüfuzuna və münaqişənin başa çatmasından sonra Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasında oynaya biləcəyi rola ciddi xələl gətirdiyi qarşı tərəfin diqqətinə çatdırılıb.

Məlumat üçün bildirmək istərdik ki, Azərbaycan ərazilərinə qanunsuz səfər edən Fransa vətəndaşlarının adları ölkəmizə girişi arzuolunmaz şəxslər siyahısına daxil edilib.

# Kəmaləddin Heydərov generala vəzifə verdi



***Fövqəladə Hallar Nazirliyində yeni kadr təyinatı olub. "Unikal"ın xəbərinə görə, bununla bağlı fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov əmr imzalayıb.***

Əmrə əsasən, general-mayor Raul Zeynalov FHN-in Bakı Regional Mərkəzi rəisinin birinci müavini vəzifəsindən azad edilərək nazirliyin Xüsusi Riskli Xilasetmə Xidmətinin rəis müavini təyin edilib. Qeyd edək ki, dekabrın 22-də Prezident İlham Əliyevin imzaladığı sərəncamla R.Zeynalova general-mayor ali hərbi rütbəsi verilib.

Baş redaktor:
**Zaur Əhməd**

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# Dünya liderləri İlham Əliyevi təbrik etdilər

***Ukraynanın sabiq Prezidenti Leonid Kuçma Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.***

"Unikal" xəbər verir ki, məktubda deyilir:

"Əziz İlham Heydər oğlu, Yubileyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Sizin 60 yaşınız hələ cavanlıqdır. Mən bunu asanlıqla isbat edə bilərəm. Hamıya məlumdur ki, bu yaxınlarda 30 illiyini qeyd etmiş müstəqil Azərbaycan gənc dövlətdir. Deməli, əgər 30 yaş cavanlıqdırsa, onda 60 yaş ikiqat cavanlıqdır.

Bu zarafatda həqiqət çoxdur. Ona görə ki, Siz həqiqətən gəncsiniz. Gördüyünüz hər işdə cəsarət və enerji buna sübutdur.

Əziz dostum, mənim ikiqat gənc dostum, Sizə tükənməz enerji arzu edirəm. Bu enerji Sizə atanızın layiqli oğlu kimi onun başladığı işləri sona çatdırmaq və xalqının sədaqətli oğlu kimi bu xalqın böyük gələcəyini qurmaqda davam etmək üçün lazımdır".

MDB İcraiyyə Komitəsinin sədri - icraçı katibi Sergey Lebedev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.

"Unikal" xəbər verir ki, məktubda deyilir:

"Möhtərəm İlham Heydər oğlu, Altmış illik yubileyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Siz haqlı olaraq Azərbaycanın tanınmış lideri, həm də dünya siyasətində parlaq simasınız. Sizin rəyiniz və mövqeyiniz ən mühüm regional problemlərin həllində müəyyənedici rol oynayır.

Sizin yüksək intellektual potensialınız, təfəkkür genişliyiniz və dövlət idarəçiliyi sahəsində çoxillik təcrübəniz dinamik dəyişən müasir reallıqlar şəraitində optimal həllər tapmağınıza imkan verir.

Azərbaycan iqtisadiyyatının inkişafı, insanların həyatının keyfiyyətinin yaxşılaşdırılması Sizin məsul dövlət vəzifəsində səmərəli işinizin dəyişməz prioritetləridir. Sizin rəhbərliyinizlə həyata keçirilən strateji kurs isə ölkənizin beynəlxalq arenada nüfuzunun və rolunun durmadan artmasına şərait yaradır.

Fürsətdən istifadə edərək, Müstəqil Dövlətlər Birliyi məkanında tərəfdaş kimi qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsi məsələlərində ardıcıl və konstruktiv mövqeyinizə, MDB İcraiyyə Komitəsinin fəaliyyətini daim dəstəklədiyinizə görə Sizə səmimi minnətdarlığımı bildirirəm.

Möhtərəm İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, firavanlıq və doğma Azərbaycanın rifahı naminə işinizdə uğurlar arzulayıram".

Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb.

"Unikal" xəbər verir ki, məktubda deyilir:

"Hörmətli İlham Heydər oğlu.

Həyatınızın əlamətdar günü - 60 illik yubileyiniz münasibətilə ən səmimi və ürəkdən gələn təbriklərimi qəbul edin.

Bu xoş gündə qeyd etmək istəyirəm ki, Sizin həyat yolunuz, xalqınızın rifahı naminə fəal və fədakar əməyiniz ölkəyə vicdanla xidmətin parlaq nümunəsidir. Dost Azərbaycan xalqı sosial-iqtisadi dəyişikliklərin reallaşmasında, əhalinin layiqli həyat səviyyəsinin təmin edilməsində, habelə respublikanın beynəlxalq aləmdə nüfuzunun möhkəmlənməsində Sizin rəhbərliyinizlə qazanılmış uğurlara görə haqlı olaraq fəxr edə bilər.

İkitərəfli qarşılıqlı əlaqələrin yüksək etimad səviyyəsi ilə səciyyələnən keyfiyyətcə yeni inkişaf mərhələsinə çatmasını Tacikistanda Sizin adınızla bağlayırlar.

Bu xoş fürsətdən istifadə edib vurğulamaq istəyirəm ki, biz ölkələrimiz arasında dostluq və çoxtərəfli əməkdaşlıq münasibətlərinin hərtərəfli möhkəmlənməsi və genişlənməsi üçün



Sizinlə bərabər bütün tədbirləri görmək əzmindəyik.

Əziz dost, Sizə səmimi qəlbdən uzun ömür, möhkəm cansağlığı, ailə səadəti və qardaş Azərbaycanın firavanlığı naminə bundan sonrakı fəaliyyətinizdə yeni uğurlar diləyirəm".

Qazaxıstan Respublikasının birinci Prezidenti - Elbası Nursultan Nazarbayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.

"Unikal" xəbər verir ki, məktubda deyilir:

"Hörmətli İlham Heydər oğlu, Altmış illik yubileyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Siz dövlət başçısı kimi atanız - mənim dostum Heydər Əliyevin başlatdığı işi davam etdirərək xalqın rifahının yüksəldilməsində, ölkənin iqtisadiyyatının inkişafında və beynəlxalq aləmdə nüfuzunun möhkəmlənməsində böyük nailiyyətlər əldə etmisiniz.

Ölkənizin ərazi bütövlüyünün bərpası xüsusi sevinc doğurmuşdur. Cənubi Qafqazda uzunmüddətli sülhün bərqərar olmasında Sizin səyləriniz regionda təhlükəsizliyə və sabitliyə töhfə verir.

Azərbaycanın parlaq gələcəyi, 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair milli prioritetlərə uyğun olaraq məqsəd və planların uğurla reallaşdırılması üçün məsul işinizdə Sizə uğurlar arzulayıram.

Əminəm ki, Qazaxıstan ilə Azərbaycan arasında qarşılıqlı hörmət və mehriban qonşuluq ənənələrinə əsaslanan hərtərəfli strateji tərəfdaşlıq bundan sonra da xalqlarımızın rifahı naminə dinamik şəkildə yüksələcək və inkişaf edəcəkdir.

Sizinlə görüşlərimizi həmişə səmimiyyətlə xatırlayıram, münasibətlərimizin gələcəkdə də davam edəcəyinə ümidvaram.

Hörmətli İlham Heydər oğlu, yubileyiniz münasibətilə Sizə möhkəm cansağlığı, ailə səadəti, məsul dövləti fəaliyyətinizdə uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və firavanlıq diləyirəm".

Türkmənistanın Prezidenti Qurbanqulu Berdiməhəmmədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb.

"Unikal" xəbər verir ki, mətndə deyilir:

"Hörmətli İlham Heydər oğlu. Sizi 60 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edir və ən xoş arzularımı bildirirəm.

Bu gün Azərbaycanın ictimai-siyasi həyatının bütün sahələrində qazanılmış böyük uğurlar, ölkənizin iqtisadi inkişafında mühüm nailiyyətlər, dünya arenasında onun nüfuzunun möhkəmlənməsi ayrılmaz surətdə Sizin adınızla bağlıdır.

Siz bütün varlığınızı doğma ölkənizin mənafelərinin qorunmasına, ümummilli hədəflərin və proqramların gerçəkləşməsinə həsr etmisiniz. Xalqa bu cür sədaqətli xidmət yüksək qiymətə layiqdir.

Ölkələrimiz arasında strateji və mehriban qonşuluq münasibətlərinin inkişafına, xalqlarımızın səmimi dostluğunun və qardaşlığının möhkəmlənməsinə Sizin şəxsi diqqətinizi və hərtərəfli dəstəyinizi xüsusi qeyd etmək istərdim.

Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək Sizə səmimi qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik və ailə firavanlığı, ölkənizin qardaş xalqına bundan sonra da sülh, tərəqqi və inkişaf arzulayıram".

Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.

"Unikal" xəbər verir ki, məktubda deyilir:

"Hörmətli İlham Heydər oğlu, Sizi 60 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm. Bir dəfə Siz çox düzgün qeyd etmisiniz: Əgər gələcək haqqında fikirləşməsən, bu günün məsələlərini həll etmək çox çətindir. Azərbaycan bu prinsipi əsas tutaraq sosial-iqtisadi inkişaf sahəsində sanballı uğurlar qazanmış, beynəlxalq miqyasda öz mənafelərini qətiyyətlə müdafiə edən güclü və nüfuzlu dövlətə çevrilmişdir.

Minsk ilə Bakı arasında strateji tərəfdaşlıq münasibətlərinin uğurla davam etməsini məmnuniyyətlə qeyd edirəm.

Əminəm ki, nəzərdə tutduğumuz irihəcmli infrastruktur layihələrinin reallaşması çoxplanlı əməkdaşlığın dərinləşməsi üçün möhkəm təməl olacaq.

Sizin dostluğunuzu, etimadınızı, dəstəyinizi, Belarusun mənafeyinə şəxsən diqqət yetirməyinizi çox yüksək qiymətləndirirəm. Görüşlərimizi səmimiyyətlə xatırlayır, qonaqpərvər Belarus torpağında Sizi tez-tez görməyə ümid edirəm.

Hörmətli İlham Heydər oğlu, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, uzun ömür, ali dövləti vəzifənizdə həyata keçirdiyiniz quruculuq işlərində yeni uğurlar arzulayıram".

Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb.

"Unikal" xəbər verir ki, mətndə deyilir: "Hörmətli İlham Heydər oğlu, Altmış illik yubileyiniz münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan çox məmnunam.

Ötən dövrdə Siz həqiqi lider, beynəlxalq aləmdə böyük nüfuz və etimad qazanmış, öz ölkəsinin inkişafına və onun xalqının firavanlığına qiymətli töhfə vermiş dövlət xadimi kimi layiqincə tanınmısınız.

Bu gün Sizin rəhbərliyinizlə Azərbaycanda genişmiqyaslı sosial-iqtisadi islahatlar və səmərəli quruculuq işləri həyata keçirilir.

Cari ilin noyabr ayında İstanbulda Türk Şurasının Zirvə toplantısında layiq görüldüyünüz "Türk Dünyasının Ali Ordeni" qardaş xalqlarımızın birliyinin təmin olunması və regionda sabitlik yaradılması üçün Sizin həyata keçirdiyiniz genişmiqyaslı fəaliyyətin etiraf edilməsinə parlaq sübutdur.

Biz çox məmnunuq ki, son illərdə siyasi, ticari-iqtisadi, nəqliyyat, kənd təsərrüfatı, mədəniyyət və humanitar sahələrdə strateji tərəfdaşlıq əlaqələri xalqlarımızın ortaq tarixi, dini və mədəni kökləri əsasında, həmçinin qarşılıqlı etimad və hörmət ruhunda fəal inkişaf edir.

Yüksək və ali səviyyələrdə danışıqlar aparılması mütəmadi xarakter daşıyır, xüsusən bu ilin noyabr ayında keçirilmiş səmərəli dialoqlar və görüşlər, heç şübhəsiz, Özbəkistan ilə Azərbaycan arasında strateji tərəfdaşlığın dərinləşməsinə xidmət edəcək, çoxşaxəli əməkdaşlığın miqyasının daha da genişlənməsinə şərait yaradacaq.

Hörmətli İlham Heydər oğlu, fürsətdən istifadə edib, Sizi həyatınızın bu unudulmaz günü münasibətilə bir daha təbrik edirəm. Sizə uzun ömür, möhkəm cansağlığı, ailə xoşbəxtliyi, məsul dövləti fəaliyyətinizdə yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, firavanlıq və daha böyük tərəqqi arzulayıram".

Çin Xalq Respublikasının Sədri Si Cinpin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb.

"Unikal" xəbər verir ki, mətndə deyilir:

"Hörmətli cənab Prezident. Doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram. Son illərdə Çin-Azərbaycan münasibətləri sürətli və sabit şəkildə inkişaf edir, qarşılıqlı siyasi etimad gündən-günə möhkəmlənir, müxtəlif sahələrdə əməkdaşlıq isə uğurla və səmərəli surətdə irəliləyir. Bu ilin iyun ayında telefon danışığımız zamanı biz ikitərəfli əlaqələrin inkişafı və əsas istiqamətlər üzrə əməkdaşlığın dərinləşdirilməsi ilə bağlı mühüm razılıqlar əldə etdik. Mən Çin-Azərbaycan münasibətlərinin inkişafına böyük əhəmiyyət verir, ikitərəfli dostluq və əməkdaşlıq əlaqələrinin ölkələrimizin, xalqlarımızın rifahı naminə yeni səviyyəyə yüksəlməsi üçün Sizinlə birgə səy göstərməyə hazıram. Sizə möhkəm cansağlığı və firavanlıq arzu edirəm".

# Əli Əsədov Qarabağda yaşayan ermənilərdən danışdı



***"Prezident İlham Əliyev qətiyyətlə bəyan etdiyi "Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" həqiqətini reallığa çevirdi, nəinki işğalçıların "bufer zona" kimi qələmə verdikləri yeddi rayon, özü də onların üçü bir güllə atılmadan işğaldan azad olundu, Hadrut və Şuşa da ətraf əraziləri ilə birlikdə düşməndən təmizləndi. Bu gün Rusiya sülhməramlılarının müvəqqəti nəzarəti altındakı ərazilərdə yaşayan ermənilər isə gec-tez öz gələcək talelərini müəyyənləşdirməli olacaqlar".***

"Unikal" xəbər verir ki, bunu Azərbaycanın Baş naziri Əli Əsədov bildirib.

"Hazırda dövlətimizin başçısının və onun rəhbərliyi ilə hökumətimizin diqqəti işğaldan azad olunmuş ərazilərin dirçəldilməsinə, bərpa-quruculuq işlərinin sürətlə aparılmasına yönəlsə də, sosial-iqtisadi inkişaf tədbirləri, ümumiyyətlə, respublikanın hər yerində eyni templə davam etdirilir. "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" 2021-ci il 7 iyul tarixli Prezident fərmanı tarixi Zəfərdən sonra ölkəmizin həyatında başlayan yeni mərhələdə şəhər və rayonlarımızın davamlı və tarazlı inkişafını nəzərdə tutur. İqtisadi rayonların yeni bölgüsü, xüsusən Qarabağın və Şərqi Zəngəzurun bərpası istiqamətində həyata keçirilən irimiqyaslı proqramların mərkəzləşdirilmiş və əlaqələndirilmiş şəkildə icrasına, bölgənin çevik idarəetmə, yeni məskunlaşma və şəhərsalma strategiyasına uyğun inkişafına xidmət edir. Bu bölgü eyni zamanda Qarabağın və Şərqi Zəngəzurun inkişaf strategiyasını digər iqtisadi rayonlar ilə qarşılıqlı şəkildə uzlaşdırır.

Bu tarixi fərman özünün iqtisadi mənası ilə bərabər, böyük siyasi əhəmiyyətə də malikdir. Belə ki, hazırda ermənilərin yaşadıqları ərazilərin bilavasitə Azərbaycanın iqtisadi rayonları tərkibində təsbit edilməsi bədnam "status" nisgili ilə yaşayanlara siyasi-hüquqi cəhətdən sərt və qətiyyətli cavabdırsa, Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması Azərbaycanın tarixi, əzəli torpağı olan Zəngəzur bölgəsinin vaxtilə Azərbaycandan ayrılıb Ermənistana birləşdirilməsinə, böyük türk dünyasının coğrafi baxımdan parçalanmasına son qoymaq, tarixi ədaləti bərpa etmək addımı, "Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də" deyən Prezident İlham Əliyevin yenilməz iradəsinin və qətiyyətinin ifadəsidir", - Baş nazir əlavə edib.

# Azərbaycanlı şəhidin ailəsi Hulusi Akarın dəvəti ilə Türkiyəyə gedib



***Türkiyənin milli müdafiə naziri Hulusi Akar ona "torpaqlarımızı işğaldan azad edəcəyik" sözünü verən Azərbaycan Ordusunun şəhid baş leytenantı Valeh Məmiyevin ailəsini Türkiyəyə səfərə dəvət edib.***

"Unikal"ın məlumatına görə, bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat yayıb. Şəhidin ailəsi Ankarada Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürkün anıt qəbrini ziyarət edib, Qurtuluş Savaşı və Atatürk Muzeyində olublar. Səfər davam edir.

Qeyd edək ki, V.Məmiyev ötən il avqustun 13-də Azərbaycanda təşkil edilən Azərbaycan-Türkiyə quru qoşunları və hərbi hava qüvvələrinin birgə döyüş atışlı taktiki və taktiki-uçuş təlimlərində uğurla iştirak edən hərbçilərdən biri olub.

Təlimlərdən sonra H.Akar Məmiyevə mükafat təqdim edib, şəkil çəkdirib və söhbət edib. Türkiyəli nazir hərbçilərə üz tutaraq bunu söyləyib: "Təlimlərdə gücünüzü və peşəkarlığınızı göstərməyiniz çox yaxşıdır. Ancaq əsas vəzifəniz 30 ildir işğal altındakı torpaqlarınızı azad etməkdir. Buradakı uğurlarınızı döyüş meydanında da sübut etməlisiniz".

V.Məmiyevin cavabı isə belə olub: "Biz Ali Baş Komandanın əmrini gözləyirik. Əmir gələn kimi ərazilərimizi işğaldan azad edəcəyik və sizin istəyinizi yerinə yetirəcəyik". Qubadlı uğrunda döyüşdə yaralanan hərbçi yerləşdirildiyi xəstəxanada məqsədinə çatdığını söyləyib: "Mən artıq məqsədimə çatmışam. Mən qardaş Türkiyənin müdafiə naziri Akara verdiyim sözü tutdum. Vətən sağ olsun". Bir müddət sonra yaralı hərbçi şəhid olub.

# "Bu templə qiymət artımı getsə, maaş, pensiya və müavinət..."

## Vahid Əhmədov: "Qiymət artımı həm obyektiv, həm də subyektiv olur"



***Məlum olduğu kimi, bir sıra sosial müavinətlərin və əməkhaqlarının qalxması ilə bağlı qərar verilib. Adətən ölkədə müavinətlərin, əməkhaqlarının artmasından sonra ölkədə bahalaşma müşahidə olunmağa başlayır. Bu səbəbdən də qarşıdakı dövrdə müxtəlif sahələr üzrə qiymət artımının olacağı gözlənilir. "Unikal"a müsahibə verən Milli Məclisin deputatı Vahid Əhmədovla söhbətimiz də bu mövzu ətrafında oldu.***

***-Vahid müəllim, hər dəfə bayram günləri yaxınlaşdıqca, qiymətlərdə artım müşahidə olunur. Bu artımların obyektiv və subyektiv tərəfləri olur. Süni qiymət artımı ilə bağlı hansı işlər görülməlidir?***

-Qiymət artımı bizi də narahat edən bir məsələdir. Milli Məclisdə dövlət büdcəsinin müzakirəsi zamanı bu məsələni qaldırdıq. Baş nazir Əli Əsədov da bildirdi ki, bununla bağlı müəyyən tədbirlər görüləcək. Qiymət artımı həm obyektiv, həm də subyektiv olur. Obyektiv odur ki, neftin və yanacağın qiyməti dünyada artır, bu səndən asılı deyil. Bir də var subyektiv qiymət. Bayram gəlməmişdən 10 gün qabaq qiymətləri qaldırmağa başlayırlar. Yəni, bəzi sahibkarlar bundan istifadə edirlər. Doğrudur, İqtisadiyyat Nazirliyinin monitorinq qrupu bununla bağlı işlər görür. Subyektiv qiymət artımı edənlərdən cərimələnənlər də olub. Monitorinq işlərini daha da artırmaq lazımdır.

Cənab Prezident son günlər bir neçə fərman imzaladı. Yaşayış minimumu, pensiyalar, müavinətlər, əmək haqqı artırıldı. 2022-ci ilin dövlət büdcəsində sosial sahə ilə bağlı böyük vəsait nəzərdə tutulub. Hər il dövlət büdcəsinin 35-36 faizi sosial sahəni əhatə edirdisə, gələn il büdcənin 47 faizə yaxını sosial layihələri əhatə edəcək. Bütün bunlarla yanaşı əhalinin vəziyyətini normal saxlamaq üçün qiymət siyasətində də problem olmalı deyil. Qiymət artımı maaşı üstələyirsə, bu zaman problem yarana bilər. Ona görə də hökumət qiymət artımları ilə bağlı ciddi addımlar atmalıdır. Məsələn, ərzaq məhsulları ehtiyatı yığmalıdır. Lazım olanda bazara müdaxilə etməlidir ki, qiymət stabilləşsin. Müəyyən variantlar var və bundan istifadə edilməlidir.

***-Sizin də qeyd etdiyiniz kimi, maaş, pensiya və müavinətlərdə artımlar oldu. Bunlar hazırkı qiymət artımlarını üstələyə biləcəkmi?***

-Bu templə qiymət artımı getsə, maaş, pensiya və müavinət artımı onu üstələyə bilməz. Özüm də marketə gedirəm, orada qiymətlərə baxıram. Son günlərdə müşahidə edirəm ki, monitorinqlər aparılır. Çalışmaq lazımdır ki, subyektiv qiymət artımları olmasın. Obyektiv qiymət artımı olacaq, bu, bizdən asılı deyil. Dünayada ərzaq problemi var, pandemiya dövrüdür və s. Bunlar, başadüşüləndir. Monitorinqlər aparmqla qiymətlərin stabilləşməsinə nail olmaq lazımdır.

***-Bir müddət əvvəl Azərbaycanda sənədsiz evlərin invertarlaşdırılmasına başlanılsa da, bu proses demək olar ki, dayandırılıb. Sənədsiz evlərin sənədləşdirilməsi üçün hansı addımlar atılmalıdır?***

-Sənədsiz evlərlə bağlı Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən müəyyən işlər görülüb. Aldığım məlumata görə, bu məsələ yekunlaşmaq üzrədir. Artıq bununla bağlı qərar vermək lazımdır. Dövlət başçısının da bununla əlaqədar göstərişi var. Düzdür, pandemiya da bu məsələyə təsir etdi. Amma, sənədsiz evləri olanlara artıq sənədləri verməyin vaxtıdır.

***-Artıq 2021-ci il başa çatır. Bu il bir sıra kadr və struktur islahatları ilə yadda qaldı. Növbəti ildə də bu islahatlar davam etdiriləcək...***

-Mütəmadi olaraq, Prezident İlham Əliyev tərəfindən islahatlar aparılır. Bura həm kadr, həm də struktur islahatları aiddir. Yeni qurumlar yaradılır, bəziləri isə ləğv olunur. Məsələləri operativ həll etmək üçün struktur dəyişikliyinə böyük ehtiyac var. Birbirini təkrar edən qurumları ləğv etmək lazımdır. Dövlət başçısı tərəfindən müntəzəm olaraq bu işlər aparılır. Struktur və kadr islahatları dayanmayıb. Bu, elə bir işdir ki, daim davam edir. Hesab edirəm ki, növbəti ildə həm kadr, həm də struktur islahatları davam etməlidir. Çox istərdim ki, icra hakimiyyəti orqanları ilə bağlı müəyyən qərarlar qəbul olunsun. Bölgələrdə iqtisadi zonalar var. Həmin iqtisadi zonaları birləşdirib bir səlahiyyətli nümayəndə təyin etmək yaxşı olardı.

***Anar Kəlbiyev***

# Etibar Pirverdiyevin şirkəti ətrafında müəmma

## "Azenco" əvvəlki gücünü itiribsə necə olur ki, 2000 manat maaşa işçi axtarır?



***Bir müddət əvvəl məlumat yayılmışdı ki, "Azərenerji" ASC-nin sabiq prezidenti Etibar Pirverdiyevə məxsus "Azenco" ASC çətin günlərini yaşayır. Belə ki, şirkət əvvəlki kimi iri layihələrin icrasından məhrumdur. Buna səbəb isə Pirverdiyevin "işıq şefi" postunu itirməsidir.***

Qeyd edək ki, "Azenco" uzun müddət enerji sektorundakı iri layihələri həyata keçirib, bu layihələrin baş podratçısı və subpodratçısı olub.

Şirkət 1939-cu ildə yaradılan Azərbaycanda istilik elektik stansiyalarının layihələndirilməsi, tikintisi və təmiri üzrə "Mərkəzi İstehsal Təmir" müəssisəsinin 2000-ci ildə özəlləşdirilməsi nəticəsində "Azenko" (Azerbaijan Energy Construction) ASC-yə çevrilib.

Bu həmin vaxt idi ki, Etibar Pirverdiyev «Bakıelektrikşəbəkə» Açıq Tipli Səhmdar Cəmiyyətinin sədri postuna təyin edilmişdi. Bundan cəmi bir il sonra Pirverdiyev "Azərenerji"nin rəhbəri postuna irəli çəkildi, elə həmin vaxtdan da "Azenco" sürətlə böyüməyə başladı və enerji sektorundakı layihələrin həyata keçirilməsində faktiki olaraq inhisarçı şirkətə çevrildi. Bu şirkət su və istilik elektrik stansiyaları, yüksək gərginlikli elektrik verilişi xətləri, elektrik enerjisinin paylanması sisteminin tikintisi və inkişafı, su və kanalizasiya sistemləri də daxil olmaqla energetika sahəsində "Layihələndirmə, tikinti və satınalma" müqavilələrini həyata keçirir, bundan başqa, elektrik stansiyaları,yarımstansiya və elektrik verilişi xətlərinin bərpası üzrə müvafiq xidmətlər də təklif edirdi.

Pirverdiyevin "vurulmasınadək" elektroenergetika sənayesinin bütün layihələrində iştirak edən "Azenco" həmçinin "Dövlət Bayrağı Meydanı" və "Bakı Kristal Hall" layihələrinin tikintisini həyata keçirib. Sonradan "Dövlət Bayrağı Meydanı"nda meydana çıxan problemlər tikintinin keyfiyyətli aparıldığına, ayrılan külli miqdarda vəsaitin əhəmiyyətli hissəsinin korrupsiya predmetinə çevrildiyinə dair ciddi şübhələr yaradıb.

2018-ci ilin sentyabrında E.Pirverdiyev yarıtmaz fəaliyyətinə görə "Azərenerji" sədri postunu itirdikdən bir müddət sonra "Azenco"ya yeni layihələrin verilməsi dayanıb. Bu isə şirkətin fəaliyyətinin kəskin zəifləməsinə səbəb olub. Yada məşhur atalar sözü düşür: "Bağda ərik var idi, salaməleyk var idi, bağda ərik qurtardı". Yəni nə qədər ki, Pirverdiyev "işıq şefi" idi, "Azenco"nun layihələri də başından aşırdı, o, vəzifəsiz qaldıqdan sonra həmin layihələr artıq "yağlı əppək olub göyə çəkilmişdi". Şirkətdə hətta maaşların verilməsində gecikmələr yarandığı və 5 min nəfərdən çox işçinin bir qisminin ixtisara düşdüyü deyilirdi.

Elə "Azenco"nun rəsmi saytında şirkətin son fəaliyyəti barədə hər hansı məlumatların verilməməsi də bu deyilənləri təsdiqləyirdi. Belə ki, azenco.az saytının "Xəbərlər" bölümü bir müddət ümumiyyətlə yenilənmədikdən sonra hazırda tamamilə boşdur.

Buna baxmayaraq "Unikal"ın araşdırmaları 2020 - 2021-ci illərdə bu şirkətin dəfələrlə vakansiya elanları verdiyini göstərir. Belə elanların birində 600 - 800 AZN maaşa SMM üzrə axtarıldığı, digərində isə 1200 - 1600 manat maaşa layihə koordinatoru tələb edildiyi bildirilir.

Başqa bir elandan isə Pirverdiyevin şirkətinin, nə az, nə çox, düz 2000 manat maaşa QHSE menecer axtardığı məlum olur.

Belə çıxır ki, son zamanlar Pirverdiyev öz biznes imperiyasını böhranlı vəziyyətdən çıxarmağa nail olub. Cəmiyyətdə onun "Azərenerji" rəhbəri olarkən yol verdiyi yeyintilərə, korrupsiyaya görə hüquqi müstəvidə cəzalandırılacağı, bir çox eks-məmurlar kimi məsuliyyətə cəlb olunacağı gözlənilərkən sabiq "işıq şefi"nin "Azenco"nu necə dirçəltdiyi maraq doğurmaya bilməz. Ən azından yüksək maaşlı vakansiyalar bu istiqamətdə şübhələri qüvvətləndirir.

Bir az da konkretləşdirsək, "Azenco", həqiqətən də, əvvəlki gücünü itiribsə necə olur ki, 2000 manat maaşa işçi axtarır? Cəmi iki il öncə bu şirkətin öz əməkdaşlarına maaş ödəməkdə çətinlik çəkdiyi, buna görə də işçilər tərəfindən ciddi şikayətlərin səsləndirildiyi, narazılıqların dilə gətirildiyi deyildiyi halda bu gün necə ola bilər ki, Pirverdiyevin şirkəti Azərbaycan reallığında kifayət qədər yüksək əmək haqqı müqabilində işçi axtarışına çıxsın?

Razılaşaq ki, kifayət qədər maraqlı suallardır, odur ki, həmin suallara cavab axtarmaq ümidi ilə araşdırmalarımızı davam etdirəcəyik və "Azərnerji"nin sabiq rəhbərinin şəxsi biznesinin real durumunu oxuculara çatdırmağa çalışacağıq.

***Sənan Mirzə***



# Nazir: "FHN Qarabağda təhlükəsizlik tədbirlərini artırıb"

***Şanlı Zəfərdən sonra cənab Prezidentin tapşırıqlarına uyğun olaraq, işğaldan azad olunmuş ərazilərdə təhlükəsizliyin aidiyyəti üzrə təmin edilməsi, mümkün fövqəladə halların vaxtında xəbərdar edilməsi və nəticələrinin çevik aradan qaldırılması işinin təmin edilməsi məqsədilə nazirliyin müvafiq strukturlarının həmin ərazilərdə fəaliyyətinin təşkilinə başlanıldı.***

"Unikal"ın məlumatına görə, bunu fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov "Azərbaycan" qəzetində dərc olunan məqaləsində deyib.

Nazir bildirib ki, azad edilən ərazilərimizdə FHN-in müvafiq qurumlarının qısa müddətdə fəaliyyətə başlaması fövqəladə halların effektli idarə edilməsi istiqamətində əhəmiyyətli rol oynayıb:

"Bu çərçivədə işğaldan azad olunmuş ərazilərdə böyük sürətlə icra olunan layihələr üzrə işlərdə aidiyyəti üzrə təhlükəsizliyin, o cümlədən yanğın təhlükəsizliyinin, tikintidə, sənaye və dağ-mədən işlərində təhlükəsizliyin təmin olunması istiqamətində müvafiq qurumlarımız tərəfindən intensiv iş aparılır.

Bundan əlavə, yerli strukturların fəaliyyətə başlaması həm də baş verən fövqəladə halların, o cümlədən açıq sahələrdə baş verən yanğınların qısa müddətdə qarşısının alınmasına imkan yaradıb. Məhz işin vaxtında və düzgün planlaşdırılması, qüvvə və vasitələrin effektli və çevik tətbiq edilməsi sayəsində baş verən yanğınların geniş əraziyə yayılmasına imkan verilməyib, qısa müddətdə söndürülməsi təmin olunub. Nəzərə alsaq ki, həmin ərazilərdə Ermənistan tərəfindən külli miqdarda minalar basdırılıb, bu işin nə qədər mürəkkəb və riskli olduğu tam aydın olar. Məhz mina təhlükəsi nəzərə alınaraq, yay aylarında açıq ərazilərdə baş vermiş yanğınlarla mübarizə tədbirlərinə helikopterlər fəal şəkildə cəlb edildi".

"Bu ilin yanvar ayından başlayaraq, FHN-in müvafiq qüvvələri işğaldan azad olunmuş torpaqlarımızda minatəmizləmə əməliyyatlarında fəal iştirak edirlər. Bu işin sürətləndirilməsi məqsədilə nazirliyin Xüsusi Riskli Xilasetmə Xidmətinin dislokasiya məntəqəsi Bərdə şəhərində olmaqla xüsusi təyinatlı mexaniknikləşdirilmiş alayı yaradılıb. Hazırda alayın ən müasir texnika və avandanlıqlarla komplektləşdirilməsi işləri sürətlə davam etdirilir", - deyə nazir bildirib.

# İki universitet dövlət qeydiyyatına alındı

***"Bu il iki Gəncə Dövlət Universiteti və Gəncə Texnologiya Universiteti akkreditasiyadan keçirilib. Həmçinin bir ali təhsil müəssisəsi iki yeni ixtisasın açılması üçün müraciət edib".***

Bunu Təhsildə Keyfiyyət Təminatı Agentliyinin İdarə Heyətinin sədri Eldar Orucov ilin yekunlarına həsr olunan mətbuat konfransında bildirib.

Onun sözlərinə görə, bu il ümumilikdə 15 ali təhsil müəssisəsində (ADPU-nun 5 filialı, ADU, Azərbaycan Universiteti, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, Odlar Yurdu Universiteti, BANM, Polis Akademiyası, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Milli Konservatoriyası, Naxçıvan Universiteti və Naxçıvan Müəllimlər İnstitutu) Akkreditasiya Komissiyasının verdiyi tövsiyələrin icrasının monitorinqi aparılıb: "Xüsusi karantin rejimi dövründə ümumi təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinə dair müvafiq qaydaların tələblərinə əməl olunmasının yoxlanılması məqsədilə I yarımil ərzində 137, II yarımil ərzində isə 600 məktəbdə monitorinq aparılıb".

# ASC-də videokonfrans keçirilib

***Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-də sədr müavini Zakir Quliyevin rəhbərliyi ilə əkin sahələrinin su təminatı, bu ilin yekunları və gələn ilə hazırlıq mövzusunda növbəti videokonfrans keçirilib.***



Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov bildirib ki, konfransda Suvarma Sistemləri, Su Anbarları, Hidroqovşaqlar və Magistral Kanalların İstismarı idarələrinin rəhbər işçiləri ilə su bölgüsü, bu ilin yekunları və gələn ilə hazırlıqla bağlı müzakirələr aparılıb. Videokonfransda Səhmdar Cəmiyyətin aidiyyəti şöbə müdirləri və mütəxəssisləri iştirak edib.

İclasda Səhmdar Cəmiyyətin sədr müavini Zakir Quliyev ölkə başçısı tərəfindən qarşıya qoyulmuş məqsəd və tapşırıqların vaxtında və operativ yerinə yetirilməsi ilə bağlı müzakirələr aparıb və əkin sahələrinin suvarma suyu ilə təmin olunması ilə bağlı müvafiq tapşırıqlar verib.

# 4 xarici vətəndaş Ombudsmana müraciət edib




***Ötən ay 4 xarici vətəndaş Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinə müraciət edib.***

Noyabr ayında Rusiya, Ukrayna, Gürcüstan və Qazaxıstan ölkələrindən hər biri bir nəfər olmaqla hüquqlarının bərpası üçün Ombudsman Aparatına müraciət olunub.

Aparatda müraciət edən şəxslərin hüquqlarının bərpası istiqamətində işlər davam etdirilir.

# "Müəllim maaşının həcmi rəqabətdən asılıdır" - Rektor



***Universitetdə maaşın həcmi müəllimin rəqabət qabiliyyətindən asılıdır.***

Bunu UNEC-in rektoru, professor Ədalət Muradov bildirib. Ə.Muradov qeyd edib ki, UNEC-də yaradılmış rəqabət mühiti pedaqoji işçilərin maaşının formalaşmasına birbaşa təsir edir: "Belə ki, rəqabətqabiliyyətindən asılı olaraq, UNEC-də professor 6045 manat, dosent 4330 manat, baş müəllim 4038 manat, müəllim 3780 manat aylıq maaş ala bilər. Hər şey daha da yaxşı olacaq".

# Parlamentarların Yeni il gecəsi - Harda olacaqlar...



***Artıq Yeni ilin gəlişinə 10 gündən az vaxt qalıb. Hər kəs bu bayramı bir qayda olaraq, müxtəlif yerlərdə, fərqli mühitdə keçirir. Kimisi bayramı evində - ailəsi və qohumları ilə birgə qeyd edir, kimisi isə xaricə üz tutur. Bir sözlə, hamının bayramla bağlı müxtəlif planları var.***

Maraqlıdır bəs, Milli Məclisin deputatları Yeni ili harada və necə keçirməyi planlaşdırır? Modern.az saytının əməkdaşı bu sualla bir neçə deputata müraciət edib:

Məlahət İbrahimqızı deyib ki, fərqli bir planı yoxdur, evdə qeyd edəcək: Yeni ili evdə ailə üzvlərimlə bir yerdə qeyd etməyi düşünürəm. Tətil günlərində isə şəhid, qazi ailələri ilə görüşməyi planlayıram".

Fazil Mustafa yeni ili Azərbaycanın rayonlarında qarşılayacaq:"Yeni ili ölkə daxilində qeyd edəcəm. Çox güman ki, evdə ya da Azərbaycanın rayonlarının birində ailə üzvlərimlə birgə bayram edəcəyik. Düşünürəm ki, Şamaxıda və ya İsmayıllıda olacam".

Arzu Nağıyev də həmkarı kimi rayonda olacaq. O bildirib ki, Tovuza ata ocağına yığışıb, bayramı ailə üzvləri ilə birgə qeyd edəcək: "Mən bayramları hər zaman ənənəvi olaraq ailə çərçivəsində qeyd edirəm. Bu il də Yeni ili ailəmlə bir yerdə Tovuz rayonunda atamın başına yığışıb, qeyd edəcəm. Eyni zamanda, bu tətildən istifadə edərək həm Tovuzda, həm də Gədəbəydə öz seçicilərimlə görüşəcəm.

Elman Məmmədov da bayram gününü ailə üzvləri ilə birgə evdə qeyd edəcək: "Hər zaman olduğu kimi Azərbaycanda qeyd edəcəm. Bayram günlərində Azərbaycanın bir neçə rayonlarında olacam. Ağdam, Goranboy, Xocavənd rayonlarına səfər edəcəm".

Aydın Mirzəzadənin sözlərinə görə, ənənəvi olaraq bayramları evində keçirir: "Ailəmlə, öz evimdə övladlarımı ətrafıma toplayaraq Yeni İlin gəlişini qeyd edəcəm. Mən düşünürəm ki, bayramı hər kəs öz evində qeyd etməlidir".

Hikmət Babaoğlu da həmkarları kimi bayram günlərində Bakıda olacaq: "Mən Yeni ilin gəlişini Bakıda evimdə qeyd edəcəm. Bayramı öz evimdə olmağı üstün tuturam. Bayramdan sonra isə Şimal bölgəsində səfərdə olacam".

Aqil Abbas da bayramı evində qeyd edən deputatlar sırasındadır: "Bayramı insan evində olar. Mən ailəmlə birgə Yeni ilin gəlişini evimdə qeyd edəcəm".

Əziz Ələkbərli hər zaman bayramı evində qeyd etdiyini deyib: "Mənim fikrimcə, insan bayramı evində olmalıdır. Buna görə də hər bayram gecəsi ailəmi ətrafıma yığıb bayramı qeyd edirəm".

# Aydın Əliyevin yoxa çıxartdığı milyardlar...

## Sabiq "gömrük şefi" ilə bağlı yeni ilginc iddialar ortaya çıxıb



***Bu günlərdə yerli mətbuata müsahibə verən Dövlət Gömrük Komitəsinin (DGK) sədri Səfər Mehdiyev maraqlı rəqəmlər səsləndirib.***

Belə ki, "Nəzəriyyəçilər iddia edirlər: gömrük qurumlarının uğurlu fəaliyyəti və rüsumların toplanmasındakı artım idxalın çoxalmasından və deməli dolayısı ilə ölkə daxilində istehsalın azalmasından, iqtisadiyyatdakı problemlərdən xəbər verir, elə deyilmi? Yəni, heyf, planı yenə artıqlaması ilə doldurduq!" sualına cavab olaraq Komitə sədri deyib: "Yox, sizinlə razı deyiləm. İdxal artmır. Soruşacaqsız, niyə? Son dörd ildə mal idxalında dövriyyə 42 milyard dollar olub. da qoyduğu vəzifədir. Və yeni şəffaflıq siyasəti, həmçinin neqativ hallarla mübarizə bizə həmin hüduda çatmağa imkan verir".

DGK rəhbərinin dediklərindən belə aydın olur ki, adıçəkilən qurumun sabiq sədri Aydın Əliyevin vaxtında şəffaflığın təmin edilməməsi milyardlarla manatlıq dövlət vəsaitinin büdcəyə daxil olmasına imkan verməyib. Həmin milyardlar hara gedib? Bu sualın cavabı isə açıq qalır.

Xatırladaq ki, həm A.Əliyev, həm də sabiq Vergilər naziri Fazil Məmmədov vəzifədə olarkən davamlı şəkildə korrupsiya iddiaları ilə gündəmə gəlirdi. Həmin sulun bəyan edilməsi - bütün bunları dövlət orqanları bilir və bilirdi. Sadəcə olaraq, bəziləri göz yumurdular, sövdələşirdilər. Daha bu dövr bitdi. Mən sizə bunu deyirəm, qurtardı. Ona görə mən dediyim kimi işləməlisiniz, vəssalam".

İndi isə DGK-nin hazırkı rəhbərinin açıqladığı rəqəmlər bir daha sübut edir ki, sabiq "gömrük şefi"nin fəaliyyəti kifayət qədər yarıtmaz olub və külli miqdarda vəsaitin dövlət büdcəsinə daxil olmasına imkan verməyib. Anlaşılmaz olan isə həmin vəsaitin hara getdiyinin hüquqi müstəvidə araşdırılmamasıdır...

Yeri gəlmişkən, sabiq sədr Bu, Gömrük komitəsinə mənim rəhbərlik etdiyim dövrdür. Əvvəlki rəhbərliyin dövründə 11 ildə mal idxalı dövriyyəsi 91 milyard dollar təşkil edib. Mənim sədr təyin olunmağımdan əvvəlki 11 ildə büdcəyə 15 milyard manat daxil olub. Mənim rəhbər olduğum 4 ildə isə büdcəyə daxil olan məbləğ 16 milyard təşkil edib. İndi müqayisə edin - 11 ildə 15 milyard və 4 ildə 16 milyard. Yəni, biz 4 il ərzində vergi və rüsumlardan büdcəyə əvvəlki 11 ildə olduğu qədər vəsaitin daxil olmasını təmin etmişik!"

Mehdiyev bundan sonra daha maraqlı fikirlər səsləndirib. Sitat: "Beləliklə, büdcəyə daxilolmalardakı artım idxalın artmasının yox, şəffaflığın təmin olunmasının hesabınadır. Biz gömrük rüsumlarının və vergilərin qanuni toplanmasında kulminasiyaya nail olmuşuq. Əgər dünya iqtisadi böhranı və ya pandemiya və lokdaun dövrlərində olduğu kimi xarici ticarət əməliyyatları sistemində nasazlıq baş verməsə, biz büdcəyə daxilolmaları ildə 4 milyard manatdan çox olmasına nail olacağıq. Bu, prezidentin qarşımıza iddiaların səbəbsiz olmadığı sonradan ölkə başçısı səviyyəsində təsdiqləndi. Belə ki, Prezident Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda çıxışı zamanı qeyd etmişdi ki, Azərbaycanda kölgə iqtisadiyyatı olmamalıdır: "Düzdür, hər yerdə var, hər ölkədə var. Bizdə bu, dözülməz dərəcəyə gəlib çıxmışdır. O təhlil mənə veriləndə, sözün düzü, çox dəhşətə gəldim. Ona görə buna son qoyulur. Vergi və gömrük orqanları keçən il proqnozdan əlavə 1 milyard manatdan çox vəsaiti nəyin hesabına toplayıblar? Onun hesabına ki, bu pullar kiminsə cibinə gedirdi və bu pullardan Azərbaycan vətəndaşı məhrum idi. Biz bu şəffaflığı təmin edərkən, mən qeyd etdiyim sosial təşəbbüsü reallaşdıra bildik. O pul qəpiyinə qədər insanların maaşına, pensiyasına, təqaüdünə, müavinətinə getdi".

Ölkə başçısı daha sonra bildirmişdi: "Bəyan edilməmiş yüklərin gətirilməsi, yükün içində bir məhsul ola-ola başqa məhvəzifədə olarkən verdiyi bir müsahibədə demişdi ki, "Azərbaycan Gömrük Xidməti gələcəkdə də respublikamızın iqtisadi inkişafına təkan verməklə ölkənin iqtisadi qüdrətinin artırılmasında, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasında, dövlət başçısının həyata keçirdiyi siyasi kursun reallaşmasında mühüm rol oynayacaq, gömrük orqanları ölkədə sahibkarlıq mühitinin və özəl sektorun inkişafı, ölkənin ərzaq təhlükəsizliyinin təminatı, büdcə öhdəliyinə dair tapşırıqların yerinə yetirilməsi istiqamətində üzərinə düşən vəzifələrin icrasını daha səmərəli şəkildə və sürətlə həyata keçirəcək. Bir sözlə, gömrük əməkdaşları bu vəzifələrin reallığa çevrilməsinin təminatçısı olacaq, qarşıya qoyulan təxirəsalınmaz vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi üçün bütün qüvvə və bacarığını əsirgəməyəcək".

Lakin indi ortaya çıxan faktlar, rəqəmlər A.Əliyevin söylədiyi sözlər DGK postunu tutarkən elə söz olaraq da qaldığını göstərir...

***Toğrul Əliyev***

# Elman Rüstəmovun köhnə səhvinin təzə fəsadı...

## Mərkəzi Bank və ekspertlər "devalvasiya olmayacaq" deyir, ancaq vətəndaşlar "dollar panikası" yaşayır

***Ötən ay Dövlət Neft Fondunun (ARDNF) Mərkəzi Bankda satdığı ABŞ dollarının həcminin 20 aylıq maksimuma çatması əhalinin dollar alışının yüksəldiyini deməyə əsas verirdi.***

Mərkəzi Bankın məlumatına görə, 2021-ci ilin noyabrında banklar əhaliyə nağd şəkildə 316.82 milyon ABŞ dolları satıb. Bu, sentyabrla müqayisədə iki dəfəyə yaxın (157.56 mln. USD) artımla ilin əvvəlindən bu tərəfə ən maksimal statistika idi.

Nəticədə isə USD/AZN mübadilə əməliyyatları üzrə orta ölçüdə məzənnəsini son bir ayda 0.0019 manat, yaxud 0.1% artımla 1.7010 səviyyəsinə qaldırıb. Bu da 2021-ci ilin yanvarındakı (1.7016) səviyyəsindən bu tərəfə minimal göstəricidir.



ARDNF banklara noyabrda keçirilən valyuta hərraclarında 853.9 mln. ABŞ dolları satmaqla 2020-ci ilin martından bu tərəfə maksimum yeniləmişdi.

ABŞ dollarına tələbin bu ay da yüksək olduğu müşahidə edilir. Dekabr ayından indiyə qədər 6 valyuta hərracı keçirilib. Həmin hərraclarda bankların dollar tələbi 597.10 mln. dollar təşkil edib. Banker.az analitikləri növbəti üç hərracda da 100 mln. üzərində hər hərraca dollar alışının olacağını gözləyir ki, bu da ARDNF-in məzənnə qorunması üçün 900 mln. dollar ətrafında böyük bir valyuta satılacağını gözləyir.

Əslində nə baş verir? Görünən odur ki, əhali arasında yenə dollar ajiotajı müşahidə olunur. Dollar satışı ilə bağlı hər hansı ciddi məhdudiyyətlər olmasa belə, daxili və xarici valyuta bazarlarındakı vəziyyət əhali arasında panika yaradıb. Hətta bölgələrdə belə banklardan kredit götürən, onu dollara çevirib saxlayan və devalvasiyanın baş verməsini gözləyən insanlar var. Onlar bu prosesdən müəyyən qədər qazanclı çıxmağa çalışırlar.

Halbuki istər Mərkəzi Bankdan, istərsə də tanınmış iqtisadçı ekspertlər tərəfindən verilən açıqlamalarda yaxın gələcəkdə milli valyutamızın ucuzlaşması üçün hər hansı səbəb olmadığı aydın şəkildə vurğulanır. Ölkənin baş bankının rəhbəri Elman Rüstəmov bir müddət əvvəl açıq olaraq bəyan edib ki, manatın məzənnəsinə heç bir təhdid və təzyiq yoxdur. Sitat: "Devalvasiya ehtimalı ilə bağlı səslənən iddialar əsassızdır. Biz tədiyyə balansında əhəmiyyətli profisit gözləyirik. Bildiyiniz kimi, beynəlxalq təşkilatlar neftin qiyməti proqnozunu əhəmiyyətli dərəcədə qaldırıb..."

Hətta Fitch Ratings" beynəlxalq reytinq agentliyi də məlumat yaymışdı ki, Azərbaycanın iqtisadi göstəricilər baxımından xarici balansın yaxşılaşması və 1,7 AZN/USD məzənnəsinin saxlanılması devalvasiya riskini daha da azaldıb.

Üstəlik, hazırda neftin qiyməti sabitdir, Amerika Federal Ehtiyat Sistemi bugünlərdə faiz dərəcəsini sabit saxlıyıb; bir sözlə, makroiqtisadi göstəricilər manata təhlükə yaratmır.

Bütün bunları nəzərə aldıqda Azərbaycandakı dollar tələşını anlamaq mümkün deyil. Düzdür, ola bilsin qardaş ölkənin milli valyutasının son zamanlar xeyli ucuzlaşması bizə də təsirsiz ötüşməyib və vətəndaşlarda yersiz panikaya yol açıb. Lakin istənilən halda dolların bahalaşması üçün hələlik hər hansı faktor yoxdur.

Görünən odur ki, cəmiyyət 2015 və 2016-cı illərdə baş verən iki devalvasiyanın travmasını hələ də adlada bilməyib. Ən əsası isə hər iki devalvasiyadan öncə Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmovun verdiyi açıqlamalar hələ də hafizələrdədir. Belə ki, cənab Rüstəmov istər 2015-ci ildə, istərsə də 2016-cı ildə manatın ucuzlaşdırılması ilə bağlı qərar verilməmişdən günlər öncə hər hansı devalvasiyanın olmayacağını qətiyyətlə bəyan etmişdi. Lakin hər dəfə də çox keçmədən Mərkəzi Bank bunun əksinə qərar vermişdi.

Ehtimal etmək olar ki, indi vətəndaşlar məhz həmin acı təcrübədən çıxış edir və Mərkəzi Bank rəhbərliyinin manatla bağlı açıqlamalarına etimad göstərmir. Əks təqdirdə ölkənin baş bankından son aylarda bir neçə dəfə təkrarlanan bəyanlar vətəndaşları sakitləşdirər və cəmiyyətdə gərəksiz yerə dollar panikasının yaranmasının önünü kəsərdi.

Bir sözlə, Elman müəllimin illər öncəki səhvi hələ də öz fəsadını göstərməkdədir: onun 2015 və 2016-cı illərdə özünü doğrultmayan açıqlamaları bu gün belə, Mərkəzi Bank yetkililərinin manatın ucuzlaşmaq riskindən uzaq olduğu, devalvasiyanın gözlənilmədiyi barədə bəyanlarının inandırıcılığını şübhə altında saxlayır.

***Sənan Mirzə***

# Leyla Əliyeva sərgidə iştirak edib



***Dekabrn 22-də Heydər Əliyev Mərkəzində təsviri incəsənətin küçə sənəti ("street art") üslubunda işləyən braziliyalı rəssam Nina Pandolfonun "Minnətdarlıq" ("Gratitude") adlı fərdi sərgisi açılıb.***

"Unikal" xəbər verir ki, sərginin açılışında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib. Mərasimdə çıxış edən Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov diqqətə çatdırıb ki, pandemiya dövründə uzun müddətdir ehtiyac duyulan belə bir sərginin məhz Mərkəzdə keçirilməsi çox əhəmiyyətlidir. Bir neçə gündür Bakıda olan Nina Pandolfo ekspozisiyanın qurulmasında şəxsən iştirak edib. Həmçinin sərginin ərsəyə gəlməsində Braziliyanın Azərbaycandakı səfiri Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruzanın, Jan David Malat qalereyasının direktoru Jan David Malatanın böyük əməyi var.

A.Ələkbərov bütün bu əlaqələrdə, eləcə də belə tədbirlərin təşkilində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın xüsusi rolu olduğunu vurğulayıb və ona təşəkkürünü bildirib.

Sərginin konsepsiyası haqqında məlumat verən braziliyalı rəssam Nina Pandolfo öncə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya və sərginin təşkilində əməyi olan hər kəsə təşəkkürünü ifadə edib.

Rəssam qeyd edib ki, "Minnətdarlıq" sərgisi hər kəsin minnətdar olmasını ehtiva edən bir sərgidir, daha doğrusu həyat tərzi anlamındadır.

"Minnətdarlıq bizi daha yüksək səviyyəyə ucaldan ülvi bir hissdir. O, bizə çətin anların keçib-getdiyini, tezliklə gözəl bir şəfəqin gələcəyini öyrədir. Bizə paylaşmağı, birləşməyi, başqalarını duymağı öyrədir. Ürəyimizin sıxıldığını hiss etdiyimiz zaman gözlərimizə təbəssüm gətirən bir hissdir. Bizi digər insanlarla və həyatla unikal və sıx şəkildə əlaqələndirir. Ümidvaram ki, bütün ziyarətçilər mənim üçün heç bir etnik mənsubiyyəti yox, daha çox qadın olmaq vəziyyətini təmsil edən personajların təsirini hiss edə bilərlər, gücün kövrəklikdə olduğunu hiss edə bilərlər. Çünki qadın zəif deyil, kövrəkdir. Zəiflik gücün olmamasıdır. Kövrəklik isə həssaslıqdır. İşləmək, başqalarına dəstək olmaq, onlara qayğı göstərmək, bir sözlə biz qadınların etdiyi hər şeyi etmək üçün bizə güc verən elə qadının həssaslığıdır", - deyə rəssam çıxışında bildirib.

Sərginin açılış mərasimində çıxış edən Braziliya səfiri Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruza Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya bu möhtəşəm təşəbbüsə görə, Fondun vitse-prezidenti Leyla Əliyevaya Nina Pandolfonu Azərbaycana dəvət etdiyi üçün təşəkkürünü bildirib.

Daha sonra sərgi ilə tanışlıq olub.

Sərgidə müəllifin multikultural dünyanı təqdim edən, etnik baxımından müxtəlifliyi ilə seçilən qadınlara həsr olunan əsərləri nümayiş etdirilir. Ziyarətçilər həm də Nina Pandolfonun qraffiti instalyasiyaları ilə də tanış ola bilər.

Müəllif hesab edir ki, minnətdarlıq hissi daim ətrafa aşılanmalı və təşviq edilməlidir. Vəziyyətdən asılı olmayaraq, hər zaman minnətdar olmaq üçün səbəb tapmaq mümkündür. Nina Pandolfo onda ən güclü minnətdarlıq hissinin məhz yaradıcılıq zamanı yarandığını söyləyir.

Sərgiyə çıxarılan əsərlərdəki qadın obrazları fərqli mədəniyyətlərə mənsub olaraq geniş açılmış gözlərlə təsvir ediliblər. Bununla da müəllif bizi əhatə edən multikultural dünyanın seyr edilməsinin və buna minnətdarlıqla yanaşılmasının vacibliyini vurğulayır.

Braziliyalı rəssam Nina Pandolfo əsərləri ilə bağlı təəssüratlarını jurnalistlərlə də bölüşüb. O deyib: "Mənim sərgimin əsası təkcə minnətdarlıq deyil, eyni zamanda, minnətdar olmaqdır. Mən cəmiyyətə bu mesajı ötürmək istəyirəm. Sərgi çərçivəsində yaratdığım qaranlıq otağın öz mənası var. Demək istəyirəm ki, biz minnətdar olsaq, qaranlıqda olan, kölgədə olan şeyləri biz işıq üzünə çıxaracağıq. O otağa keçən hər bir kəs öz işığını orada görəcək".

Səfir Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruza isə müsahibəsində vurğulayıb ki, pandemiyadan sonra bu sərginin təşkili yeni həyatın başlanğıcıdır, yəni öncədən gələn bir yazıdır, canlı aləmin oyanışıdır. "Çox xoşbəxtəm ki, bu duyğuları Braziliya rəssamı gətirdi. Azərbaycan odlar diyarı olduğu kimi, biz də buraya hisslərimizlə bir od gətirdik. Bu sərgi dünyəvi xarakter daşısa da, burada Braziliyanın nüansları var. Sərgidə nümayiş olunan əsərlər müxtəlif irqlərin nümayəndələridir - Braziliyada olduğu kimi".

Heydər Əliyev Mərkəzindəki "Minnətdarlıq" sərgisi 2022-ci il iyunun 19-dək davam edəcək.



## DGK-nin elektron xidmətlərindən istifadə sayı 11 milyona çatıb

***Bu ilin 11 ayında Dövlət Gömrük Komitəsinin (DGK) təqdim etdiyi elektron xidmətlərdən istifadə sayı 10 milyon 832 mindən çox olunub.***

"Unikal" xəbər verir ki, bunu DGK-nın Texnoloji İnnovasiyalar və Statistika Baş İdarəsinin rəisi Təmkin Xəlilov bildirib.

Onun sözlərinə görə, bu dövr ərzində təkcə "e.customs.gov.az" portalı və "Smart Customs" mobil tətbiqi üzərindən 5 milyon 557 mindən çox Elektron Ticarət Bəyannaməsi gömrük orqanlarına təqdim edilib: "Ümumilikdə 166 min nəfərdən çox istifadəçi portlada qeydiyyatdan keçib. Mobil tətbiq istifadəçilərinin sayı 358 min nəfərdən çoxdur. Onlardan 222 min nəfəri Android, 136 min nəfəri isə İOS platformasının istifadəçiləridir".

Qeyd edək ki, hazırda Dövlət Gömrük Komitəsi ümumilikdə 24 elektron xidmət təqdim edilir.

## Bakı metrosu qış mövsümünə hazırdır

***"Bakı Metropoliteni" QSC qış mövsümünə hazırlıq prosesini yekunlaşdırıb.***

Bu barədə "Unikal"a qurumdan bildirilib. Məlumatda deyilir ki, qış fəslinin, əsasən qarlı-çovğunlu günləri qatarların hərəkətinin təşkil olunmasında, sərnişinlərin rahatlığının təmin edilməsində problemlər yarada bilər. Xüsusilə qarlı günlərdə "Nərimanov" elektrik deposunun açıq hava şəraitində olan yollarında çətinliklər ola, çoxsaylı yoldəyişdirici qurğuların qar altında qalması nasazlıqlara gətirib çıxara, nəticədə, depodan yeraltı yollara qatar vermək mümkün olmaya bilər.

Hazırda Bakı metrosunun qarla mübarizə qərargahı qışa hazırdır. Qərargah müvafiq avadanlıq, alət və digər materiallarla təmin olunub. İşçilər üçün xüsusi geyimlər, ayaqqabılar və digər fərdi mühafizə vasitələri alınıb. Yol təsərrüfatının qəzabərpa sahəsi qış şəraitinə tam uyğun vəziyyətə gətirilib. Qarın yığılması üçün tələb olunan alətlər sazlanıb.

Park yollarının ərazisi yoxlanılır, müvafiq tədbirlər görülür. Xüsusən üfürücü qurğuların yerləşdiyi yerlərə davamlı baxış keçirilir, çəpərləmə ləvazimatının, alətlərin və avadanlığın vəziyyəti yoxlanılır. Depo və park yollarında izolə qovşaqları daim yoxlanılır, qüsurlu elementləri dəyişdirilir.

Stansiyalarda da qış tədarükü görülüb. Güclü qar yağıntısı və şaxtalı hava şəraiti müddətində stansiya pilləkənlərindən qarın təmizlənməsi üçün lazım olan alət ehtiyatı hazırlanıb. Pilləkənlərin buzlaşmasına qarşı hər stansiyanın ehtiyatında duz saxlanılır. Stansiya heyətinə əlverişsiz hava şəraitində, xüsusən qarın yağacağı müddətdə görüləcək işlərlə bağlı təlimatlar verilib. Bu zaman stansiya pilləkənləri nəzarətdə saxlanılacaq, sərnişinlərin hərəkəti üçün təhlükə yarada biləcək maneələr aradan qaldırılacaq. Şiddətli qar yağıntısı zamanı Qarla mübarizə qərargahından zərurət yaranan stansiyaya təhkim olunmuş işçilər dəvət ediləcək.

Görülən işlərə əsasən, metropoliten qarlı-şaxtalı günlərdə iş ahəngini qorumağa hazırdır.

# Mərdan Camalov yola salınır

## Zərdab rayon İcra Hakimiyyətinin başçısı vəzifəsini itirə bilər

***Azərbaycan yeni ilə qədəm qoymağa hazırlaşır. Hər bir təzə təqvim ili kimi, 2022-ci ilin də həyatımızda bir sıra yeniliklərə, dəyişikliklərə gətirib çıxaracağı şübhəsizdir.***

Həmin sırada müəyyən vəzifəli şəxslərin, o cümlədən, bir çox rayon və şəhər İcra Hakimiyyəti başçısının öz postu ilə vidalaşacağı barədə duyumlar, iddialar da var. Bu sayımızdan etibarən 2022-ci ildə vəzifəsindən kənarlaşdırılması böyük ehtimal kimi görünən məmurlar barədə danışacağıq.

İlk yazımızda Zərdab Rayon İcra Hakimiyyətinin (RİH) başçısı Mərdan Camalovdan bəhs edəcəyik. İddialara inansaq onun kreslosuna təhlükə yaranıb. Belə ki, rayonda Mərdan müəllimin yaxın vaxtlarda vəzifəsindən uzaqlaşdırılacağına dair məlumatlar bir müddətdir yayılıb.

Üstəlik, bu baş verənlər rayonda kimsəni təəccübləndirməmişdi. Çünki Zərdab rayonu yerli əhalinin rayon İcra Hakimiyyətindən, başda icra başçısının özü olmaqla ayrı-ayrı vəzifəli şəxslərdən ən çox şikayətlərin edildiyi bölgələrdəndir. Məsələn, bu yaxınlarda rayon sakini, II-ci qrup Qarabağ qazisi Osmanov Ziya Şahmurad oğlu yerli mətbuata müraciət edərək bildirmişdi ki, Zərdab rayon, "4 yol" ərazisi, Zərdab-Mollakənd yolunun sol hissəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq məqsədilə, 0,003 ha (30kv.metr) torpaq sahəsi üzərində Əmlak Məsələləri üzrə Dövlət Komitəsi yanında Dövlət Reyestri Xidməti tərəfindən 22.06.2020-ci il tarixində çıxarış əldə edərək, həmin torpaq üzərində mülkiyyət hüququ əldə edib. Və həmin torpaq üzərində tikinti işlərinin aparılması Zərdab rayon İcra Hakimiyyətinin Me-



Qeyd edək ki, hələ ötən il sözügedən RİH-də hüquq-mühafizə orqanlarının əməliyyat keçirməsinə dair iddialar ortaya atılmışdı. Lakin məsələ ilə bağlı açıqlama verən Camalov bunu yalanlamışdı. "Heç kim özündən Amerika çıxarmasın. İcra hakimiyyətində heç kim həbs edilməyib. Sadəcə lazım olan müəyyən məsələlərlə bağlı 1 ay əvvəl işdən çıxardığım icra nümayəndəsi və bələdiyyə sədri saxlanılıblar. Bu barədə də KİV-lərə məlumat veriləcək. O yoldaşlar nə icra hakimiyyətinə gəlib əməliyyat keçirib, nə də buradan kimsə həbs olunub" deyən başçı yerli İcra Hakimiyyətinin Memarlıq və Tikinti şöbəsinin müdiri Sahid Abuseyid oğlu Əhmədovdan izahat alındığını və onun həbs edilmədiyini bildirmişdi: "Nəsə lazım olub deyə, onu çağırmışdılar. Hazırda memar da, mən də öz yerimdəyəm".

Göründüyü kimi, həmin vaxt belə iddiaların ortaya çıxması üçün əsaslar olub. Yəni Zərdabın yerli məmurları xeyli "həyəcanlı" anlar yaşayıblar.

marlıq və Tikinti şöbəsi ilə də razılaşdırılıb. Lakin əlində qanuni sənədlərinin olmasına baxmayaraq Zərdab rayon icra hakimiyyətinin başçısı Mərdan Camalov və icra hakimiyyətinin Memarlıq və Tikinti şöbəsinin müdiri ona məxsus olan ərazidə tikinti işləri aparmasına imkan vermir. Belə ki, icra hakimiyyətindən ona bildiriblər ki, həmin ərazi avtobus və taksi fəaliyyəti üçün nəzərdə tutulduğundan, orda tikinti işlərinin aparılması qeyri mümkündür. Bu baxımdan da Z.Osmanov ölkə rəhbərliyindən kömək istəmişdi.

Zərdab RİH sözügedən şikayətin əsassız olduğuna dair açıqlama versə də, qarşı tərəf bunun heç də belə olmadığını konkret faktlarla ortaya qoymuşdu.

Yenə bu yaxınlarda şəhid Sərdar Əhədovun atasının torpağı əlindən alınıb. TİA.Az xəbər verir ki, 1-ci Qarabağ müharibəsində torpaq uğrunda qəhrəmancasına şəhid olan S. Əhədovun atasına bir qarış torpağı çox görürlər. Şəhid atasına qanuni, sənədlə verilmiş 10 hektar torpaq sahəsi indi zəbt olunub. Şəhid atasının mediaya dediyinə görə, Zərdab rayonunun icra başçısı Mərdan Camalovun sifarişi ilə torpağı əlindən alınıb. "Həmin torpaq sahəsində əkdiyim taxılı və yoncanı malqaraya otardıb tələf etdilər. Mal-qara sahibləri mənə dedilər ki, buna icazəni icra başçısı Mərdan Camalov verib.

Hansı ki, həmin torpaq sahəsini qanuni qaydada bələdiyyədən müqavilə ilə 25 illik icarəyə götürmüşəm. Əlimdə reyestr çıxarışı və icarə müqaviləsi var"- şikayətdə bildirilir.

Xatırladaq ki, nəhəng biznesə və gözqamaşdırıcı sərvətə sahib olduğu deyilən 64 yaşlı M.Camalov 2005-2019-cu illərdə Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsində çalışıb. Bundan sonra, 2019-cu ilin noyabrında Zərdab Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin edilib. Yəni o bu postda iki ildən bir qədər artıqdır ki, çalışır. Bununla belə, yerli əhali arasında icra başçısının ona göstərilən etimadı doğrultmadığı fikri hakimdir. Yuxarı dairələrin də Mərdanovun fəaliyyətindən ciddi narazılığın olduğu barədə düşünən sakinlər onun indiki kreslosunda çox otura bilməyəcəyi qənaətindədirlər.

Lakin buna şübhə ilə yanaşanlar da var. Belələri icra başçısının öz "səmərəli fəaliyyətinə görə" cəmi ilyarım öncə "Şöhrət" ordeni ilə təltif edilməsini xatırladırlar. Hərçənd son illərdə hüquq-mühafizə orqanları tərəfindən saxlanılan bir çox yüksək vəzifəlilər arasında da bir zamanlar belə təltiflərə layiq görülənlər kifayət qədərdir. Proseslər onu göstərir ki, hər hansı post sahibi öz fəaliyyətini vətəndaş məmnunluğunun artırılması, şəffaflığın təmin edilməsi kimi önəmli prinsiplər üzərində qura bilmirsə, həmin məmurların nəinki işini, hətta azadlığını itirməsi an məsələsidir...

***Sənan Mirzə***

## Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# QHT-lərin yeni layihələri vətəndaş cəmiyyətinə nə verəcək?

## İlqar Orucov: "Layihələrdə müharibədə iştirak edən qazilərə psixoloji dəstək və sair məsələlər də yer alıb"



***Bütün dünyada QHT-lərin vətəndaş cəmiyyətinin inkişafında böyük rolu var. QHT-lər hüquqi dövlətin qurulması, qanunların hazırlanmasında yaxından iştirak edir. Azərbaycanda son illər QHT-lərin fəaliyyəti xeyli inkişaf edib. Elə son illərdə QHT-lərin dövlətdən dəstək alması bu inkişafa geniş şərait yaradıb. Bu günlərdə ölkəmizdə fəaliyyət göstərən QHT-lər yeni ildə layihələr həyata keçirmək üçün yenidən qrant müsabiqəsinə qoşuldular. 452 layihəyə qrant ayrılması qərarı verilib.***

Müsabiqənin nəticələrinə həsr olunmuş brifinqdə QHT-lərə Dövlət Dəstəyi Agentliyinin İcraçı direktoru Aygün Əliyeva bildirib ki, bu il üçün kiçik qrant müsabiqəsinə 7 istiqamət üzrə 478 layihə təqdim olunub. Onlardan 26 layihə müsabiqə qaydalarına uyğun təqdim edilmədiyindən texniki seleksiyadan keçməyib. 452 layihə isə qəbul edilib. Onun sözlərinə görə, Agentliyin Müşahidə Şurasının üzvləri tərəfindən müsabiqənin keçirilməsinin müvəqqəti qaydasına və meyarlara uyğun gələn layihələrə üstünlük verilib: "415 QHT layihəsinin maliyyələşdirilməsi haqqında qərar qəbul olunub. Bu il kiçik qrant müsabiqəsi Agentliyin yeni yaradılan elektron portalı "e-qrant.az" saytı vasitəsi ilə həyata keçirilib. Qrant müsabiqəsi insan haqları, ictimai vəkillik, demokratiya və hüquq məsələləri, insan alverinə qarşı mübarizə sahəsində təşəbbüslərin dəstəklənməsi, elm, təhsil, mədəniyyət və azərbaycançılığın təbliği, ailə, qadın, uşaq və gender məsələləri, ətraf mühitin və sağlamlığın qorunması, narkomaniya ilə mübarizə, açıq hökumətin və ictimai nəzarətin təşviqi, korrupsiyaya qarşı mübarizə, sosial (o cümlədən şəhid ailələri, müharibə veteranları, əlilliyi olan və digər həssas qruplara aid olan şəxslərin sosial problemlərinin, müharibə təsirlərinə məruz qalan bölgələrlə bağlı problemlərin həlli) və iqtisadi məsələlər, Azərbaycanın milli maraqlarının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda müdafiəsi mövzularını əhatə edib".

Qalib gələn QHT-lərlə Agentlik arasında dekabrın 18-dək müqavilə imzalanacaq. Layihələr gələn il fevralın 1-dən icra olunmağa başlayacaq və icra müddəti 3-6 ay olacaq.

Bəs görəsən həyata keçiriləcək layihələr səmərəli olacaqmı?

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının üzvü İlqar Orucov bildirir ki, layihələrin səmərəli olacağına inanır: "Müsabiqəyə müraciət edib müsbət cavab alan QHT-lərin layihələrinin bir hissəsi təhsillə bağlıdır. Bu il biz Qarabağda zəfər qazandığımızdan, layihələrin əksər hissəsi məhz işğaldan azad olunmuş ərazilər, Qarabağ həqiqətlərinin müharibədən sonra dünyaya çatdırılması ilə bağlıdır. Həmçinin layihələrdə müharibədə iştirak edən qazilərə psixoloji dəstək və sair məsələlər də yer alıb. Bu baxımdan mən layihələrin səmərəli olacağına inanıram".

İ. Orucov həmçinin qeyd edib ki, müharibədən sonra Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasına daha böyük ehtiyac var. Bu işdə isə QHT-lərin fəaliyyətinə böyük ehtiyac var.

Şura üzvü bildirir ki, QHT-lərin hamısının fəaliyyətini qənaətbəxş hesab etmək mümkün deyil. Onun sözlərinə görə, Azərbaycanda 4 mindən çox QHT fəaliyyət göstərir və biz onların fəaliyyətinə baxanda əlbəttə ki, hamısını eyni imkanlara və bacarıqlara malik səviyyədə görmürük. Yaxşı təşkilatlanmış QHT-lər də var, amma təəssüf edirəm ki, yalnız qrant xətrinə işləyən və milli maraqlarla bağlı məsələlərdə biganəlik göstərən təşkilatların fəaliyyəti də çoxdur. Belə təşkilatlar konkret olaraq xarici donorlardan asılı vəziyyətdədirlər və Azərbaycanla bağlı bir çox hallarda yanlış informasiyaları ötürürlər və bu çox zərərlidir. Əlbəttə ki, Azərbaycanın milli maraqlarını qoruyan, dövlətə xidmət edən, dövlətçiliyin keşiyində duran QHT-lərin də sayı kifayət qədərdir. Ümid edirəm ki, vətəndaş cəmiyyəti fəaliyyətində yalnız bir məqama diqqət yetirməli və üstünlük verməlidir - hər şey dövlətimiz naminə olmalıdır, yeni nəticədə onların fəaliyyətindən dövlət qazanmalıdır.

Vətəndaş cəmiyyətinin maliyyələşməsinin tənzimlənməsi ilə bağlı qeyd etmək istəyirəm ki, dövlət tərəfindən, cənab Prezident tərəfindən göstərilən diqqət və qayğının nəticəsində QHT-lərə Dövlət Dəstəyi Şurası uzun müddət fəaliyyət göstərdi və artıq bu qurumun təkmilləşdirilməsi, bütövlükdə vətəndaş cəmiyyətinin inkişafında yeni mərhələnin başlaması ilə bağlı bu ilin aprel ayının 19-da cənab Prezidentin fərmanı ilə QHT-lərə Dövlət Dəstəyi Şurası ləğv edildi və onun bazasında Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi formalaşdırıldı. Bu artıq tamamilə yeni bir mərhələ, eyni zamanda QHT-lərə dövlət dəstəyinin artırılması istiqamətində yeni bir institutdur. Publik hüquqi şəxs olaraq Agentlik artıq fəaliyyətə başlayıb. Onu da xatırladım ki, dövlət başçısı qısa müddətdən sonra Agentliyin Müşahidə Şurasının on bir nəfərdən ibarət üzvünün təyin olunması ilə bağlı sərəncam imzaladı. Hesab edirəm ki, yeni heyət kifayət qədər peşəkar insanlardan ibarətdir və bu da ümid verir ki, Agentlik effektli və yaxşı səviyyədə işlər ortaya qoya biləcək ".

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Azərbaycan azad olunmuş ərazilərin adlarını "Google"a təqdim edib

***"Nəzərinizə çatdırırıq ki, "Google maps" tətbiqində Azərbaycanın Qarabağ bölgəsinin adlarının rəsmi adları ilə Azərbaycan dilində göstərilməsi ilə yanaşı, saxta adlarla erməni dilində göstərilməsi məsələsi rəsmi diplomatik kanallarla "Google" şirkəti qarşısında qaldırılıb. Azərbaycanın ərazilərinin adlarının təhrif edilməsi ilə bağlı şirkət rəhbərliyinə məktub ünvanlanıb və ölkəmizin müvafiq ərazilərinin rəsmi coğrafi adlarının siyahısı qarşı tərəfə təqdib edilib".***

"Unikal" xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva "Google maps" tətbiqində Azərbaycanın azad olunmuş ərazilərinin adları ilə bağlı sualı cavablandırarkən deyib.

"Eyni zamanda, xatırlatmaq istərdik ki, bu ilin may ayında tərəfimizdən BMT-nin Coğrafi adlar üzrə Ekspertlər Qrupunun (UNGEGN) illik sessiyasında Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birlikdə hazırlanmış milli hesabat təqdim edilmişdir. Bu hesabatda 4589 yaşayış məntəqəsinin Azərbaycan, ingilis və rus dillərində rəsmi qaydada standartlaşdırılmış və təsdiq edilmiş adlarını əks etdirən siyahını, habelə Ermənistan-Azərbaycan münaqişəsinin təsirinə məruz qalmış ərazilərimizdə yerləşən və təhrif edildiyi müəyyən edilmiş 125 coğrafi obyektin adını özündə ehtiva edir.

BMT-nin Coğrafi adların Standartlaşdırılması üzrə Konfransları çərçivəsində qəbul edilmiş qətnamələrə görə hər hansı bir dövlətin səlahiyyətli dövlət qurumu tərəfindən standartlaşdırılmış coğrafi adlara dəyişiklik edilməsi yolverilməzdir və bu kimi dəyişikliklər BMT tərəfindən tanına bilməz.

"Google maps" platformasına gəldikdə onu da qeyd etmək istərdik ki, bu tətbiq istifadəçilərin fərdi müraciətləri və yanaşmaları prinsipi əsasında fəaliyyət göstərir. Bu baxımdan vətəndaşlarımızın, habelə qeyri-hökumət qurumlarının mövzu ilə bağlı fəal şəkildə fikirlərini şirkətə yazmaları çox önəmlidir.

Hazırda məsələ diqqət mərkəzində saxlanılır və təhriflərin aradan qaldırılması istiqamətində tədbirlər davam etdirilir", - L.Abdullayeva bildirib.

# Bu il Azərbaycanda 27 uşaq zorakılığa məruz qalıb - RƏSMİ

***Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi bu il ərzində zorakılığa məruz qalmış 27 uşağın müraciətinə baxıb.***

Bu barədə "Unikal"a qurumun mətbuat katibi Teymur Mərdənoğlu açıqlamasında deyib. Onun sözlərinə görə, onların hər biri yetkinlik yaşına çatmamış uşaqlardır.

"Müraciətlər aidiyyatı üzrə yönləndirilir. Bununla bağlı İcra hakimiyyətləri nəzdində "Yetkinlik yaşına çatmayanların işlərin və hüquqların müdafiəsi üzrə komissiya" fəaliyyət göstərir. Bu komissiyalarda müraciət olunan məsələlər dərhal araşdırılır və müvafiq addımlar atılır".

***Gülayə Mecid***



## Qoxu hissi itən insanlara tövsiyə

***Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti Vəfa Pənahian Mustafa koronavirus infeksiyasına yoluxma zamanı qoxu itkisini ev şəraitində bərpa etmək üçün tövsiyələr verib.***

"Unikal"ın xəbərinə görə, o deyib ki, insan yemək qoxusunu hiss etmirsə, onun burnuna kəskin iyli ətirlər yaxınlaşdırıb iylədilməlidir.

Vəfa Pənahian Mustafa vurğulayıb ki, əgər bu da effekt vermirsə, onda ən təsirli olan üsul, yəni naşatır spirti istifadə olunur: "İnsanlar bəzən qoxu hissinin itməsi ilə üzləşəndə təşvişə düşürlər. Bu halda bəziləri panikaya düşərək qoxubilmənin pozulmasının dərəcəsini müəyyən etmək məqsədilə tərkibində spirt olan məhlulları normadan artıq istifadə edirlər, bu da burnun kapilyarlarının zədələnməsinə səbəb ola bilər. Sizin onlara tövsiyənizi bilmək istərdik. Belə vəziyyətdə tövsiyəm odur ki, qoxu reseptorları oyatmaq üçün tərkibi müalicəvi otlar olan "Composor 16" və "Sinusol" spreylərindən, ya da el arasında "Vyetnam mazı" adlanan müalicəvi maye balzamdan istifadə etsinlər".

Nazirliyin mütəxəssis-eksperti bildirib ki, ABŞ alimlərinin apardığı elmi-tibbi tədqiqatların nəticəsinə əsasən, qoxu hissi itən insanlara qoxu məşqləri tövsiyə olunur: "Qoxu məşqləri burun reseptorlarını məşq etməyə və siqnalları oyatmağa kömək edir. Əgər dadbilmə ilə iybilmə funksiyası birlikdə pozulursa, onda burada selikli epitel qişasında, qoxu reseptorlarında zədələnmə mövcuddur. Bu vəziyyətdə bir aylıq vitamin-mineral kompleksinin qəbulu təyin edilə bilər".

## Daha 3 koronavirus xəstəsinə cinayət işi açıldı

***Dekabrın 22-də polis əməkdaşları tərəfindən respublika ərazisində 6 nəfər aktiv koronavirus xəstəsi ictimai yerlərdə aşkar edilərək saxlanılıblar. Polis əməkdas?ları "COVİD-19" virusuna yoluxaraq ev şəraitində müalicədə olmasına baxmayaraq yaşadığı evləri tərk etmiş həmin şəxslərlə izahedici söhbətlər aparıb, tibbi prosedurları go?zləməklə yas?adığı evlərə qaytarıb və bu barədə müvafiq səhiyyə qurumları məlumatlandırılıb.***

DİN-dən "Unikal"a verilən məlumata görə, ev şəraitində müalicə təyin edilməsinə baxmayaraq, yaşayış yerini tərk edən 3 nəfər barəsində isə Cinayət Məcəlləsinin 139-1.1 (epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılıb.

## Gəncədə dilənçilər saxlanıldı

***Gəncədə dilənçilər saxlanılıb. Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Gəncə regional qrupundan "Unikal"a verilən məlumata görə, Gəncə Şəhər Baş Polis İdarəsinin Nizami Rayon Polis İdarəsinin əməkdaşları şəhər ərazisində tüfeyli həyat tərzi keçirən və dilənçiliklə məşğul olaraq vətəndaşların haqlı narazılığına səbəb olan şəxslərlə bağlı profilaktiki tədbir keçirib.***

Tədbir zamanı ümumilikdə 40 nəfər saxlanılaraq Polis İdarəsinə gətirilib. Onlarla profilaktiki söhbətlər aparılıb, 31 nəfər barəsində isə İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə protokol tərtib edilib.

Daha sonra saxlanılan şəxslər qeydiyyata olduqları şəhər və rayonlara göndərilib.

# İqtisadi artımın davamlı olması üçün nə lazımdır - TƏHLİL

***Ölkə iqtisadiyyatı 2020-ci ildə pandemiyanın səbəb olduğu enişdən artıq çıxıb. 2021-ci ilin yanvar-noyabr aylarında ölkədə 80 milyard 688,2 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5,3 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub ki, bu da iqtisadiyyatımızın güclü sürət götürməsi deməkdir.***



2021-ci ilin yanvar-oktyabr ayları ərzində ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4,9 faiz çox ÜDM istehsal edilmişdi ki, ilin sonuna bu rəqəmin 5 faizi aşacağı aydın görünürdü. Bir daha xatırladıram ki, keçən ili 4,3 faiz enişlə başa vurmuşduq. Halbuki, 2019-cu ilin yekununa görə, 2,2 faiz artım qeydə alınmışdı. Ümumiyyətlə, keçən il yaxşı qurtardıq: pandemiya ilə əlaqədar ÜDM istehsalı həcmi 4,3 faizdən də çox eniş edə bilərdi. Lakin hökumətin vaxtında gördüyü tədbirlər və atdığı addımlar nəticəsində pandemiya şəraitinin həm daxildən, həm də xaricdən yaratdığı təzyiq və təsirlər müqavimətlə qarşılaşdığından, Azərbaycan kəskin maliyyə itkilərinə məruz qalmayaraq, borc istəyən ölkələr sırasına düşmədi.

İqtisadiyyat naziri Mikayıl Cabbarov qeyd edib ki, 2021-ci ilin yekununda ÜDM istehsalının dəyəri 50 milyard ABŞ dollarını keçəcək. Çünki cari ilin ötən 11 ayının nəticələrinə görə, ÜDM-in artım tempi 5,3 təşkil etməklə, qeyri-neft sektorunda bu rəqəm 6,4 faiz olub.

Dinamikaya rəvac verən məhz qeyri neft-qaz sektorunun inkişafıdır. Ümumiyyətlə, son illər ərzində bu sahədə müsbət tendensiya və qeyri neft-qaz sektoru üzrə ixracın artmaqda olması ümumi iqtisadi inkişafa və artıma çox böyük təkan verir. Nazirin sözləri ilə qeyd etsəm, qeyri-neft məhsullarının ixracındakı artıma gəldikdə, hesabat dövründə bu rəqəm 44 faiz təşkil etdiyindən ilin sonuna qədər bu dinamikanın qalacağı gözlənilir.

Əsas məsələ ondadır ki, iqtisadi inkişafda dayanıqlıq əldə etmək lazımdır. Belə ki, birdən-birə 4,3 faiz iqtisadi tənəzzüllə üzləşən ölkədə növbəti il ərzində 5 faizdən çox yüksəliş əslində, ciddi və ətraflı təhlil tələb edir. Çünki burada söhbət əslində böyük və kəskin dalğalanmadan gedir. Ortada möhkəm dayanıqlıq olmasa bu cür dalğalanmalardan ciddi fəsadlar törəyə bilər. Ən azı sosial aspektdən...

Ölkəmiz xarici iqtisadi təsirlərdən və şok halların yaratdığı təzyiqlərdən tezliklə yaxa qutarmalıdır. Bunun üçünsə iqtisadiyyatda stimullaşdırıcı siyasət daha geniş şəkildə davam etdirilməli, bütün növ inhisarçı amillər aradan götürülməli, geniş rəqabət mühiti yaranmalıdır. Keçən il pandemiya ilə əlaqədar fəaliyyətləri məhdudlaşdırılan və basqı altına alınan iqtisadiyyatın əsas generasiya vasitələri və ümumən təklifi formalaşdıran əsas istehsal sahələri də gələn il tam şəkildə əvvəlki vəziyyətlərinə qayıdacaq, ümumi iqtisadi dövriyyədə pandemiyaya qədərki güclərini bərpa edəcəklər. Nəticədə həm kənarda, həm də daxildə cari ilin əvvəlindən bəridir ardıcıl müşahidə edilən qiymət artımı prosesi də səngiyəcək. Və bu da iqtisadi artıma bir az da əlavə güc qatmaqla, davam etdirəcək.

Ümumiyyətlə, İqtisadiyyat Nazirliyinin proqnozlarına əsasən 2022-ci ildə ölkədə real ÜDM 3,9 artaraq artaraq 86,6 milyard manata çatacaq ki, bu zaman, gələn il qeyri-neft ÜDM üzrə 4,9 faiz, neft üzrəsə 1,8 faiz artım olacaq.

Qeyd edim ki, bütün bunlar neft qiymətlərinin 50 ABŞ dolları/barel səviyyəsi nəzərdə tutularaq proqnozlaşdırılmışdı. Elə ən böyük mənfi nüans da məhz bundan ibarətdir. Yuxarıda qeyd etdim ki, birdən-birə 4,3 faiz iqtisadi tənəzzül əldə edən ölkədə növbəti il ərzində 5 faizdən çox yüksəliş əslində, ciddi və ətraflı təhlil tələb edir. Çünki bu, əslində böyük və kəskin dalğalanma olduğundan, ciddi risk xarakteri daşıyır.

Odur ki, yeni ildən əmək müqaviləsi ilə çalışanların əksəriyyətinin əmək haqqlarının artırılacağını, ümumən, 2 milyondan çox insanı əhatə edəcək pensiya, müavinət, təqaüd, əməkhaqqı, sosial yardım formasında sosial ödənişlərdə artımlar olacağını nəzərə alaraq, iqtisadiyyatda şəffaflıq genişlənməli, kölgə iqtisadiyyatına qarşı mübarizə gücləndirilməklə, açıq rəqabət mühiti yaratmaqla dövlət büdcəsinə proqnozlaşdırılan gəlirlər, o cümlədən, qeyri-neft sektorundan vergilər artıqlaması ilə təmin edilməli və iqtisadi yüksəlişin dayanıqlı xüsusiyyət kəsb etməsinə nail olunmalıdır(azvision).

***Pərviz Heydərov***

# "ASAN Könüllülərinin Diplomatiya Günləri" layihəsi yekunlaşıb

***"ASAN Könüllüləri" Təşkilatının təşkilatçılığı, Bakı Ali Neft Məktəbinin və "Diplomatiya könüllüləri"nin tərəfdaşlığı ilə "ASAN Könüllülərinin Diplomatiya Günləri" layihəsi yekunlaşıb.***

Layihənin bağlanış mərasimində Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev və Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov çıxış ediblər.

44 günlük Vətən müharibəsinə həsr olunmuş layihənin əsas məqsədi diplomatik-siyasi mübarizənin vacibliyinin müzakirəsi, beynəlxalq arenada Azərbaycanın haqlı mövqeyini konstruktiv şəkildə ifadə edə biləcək



gənclər şəbəkəsinin formalaşdırılmasına dəstək vermək, həmçinin diplomatik fəaliyyətin gənclərə aşılanması, onların siyasi biliklərinin artırılması, sərbəst müzakirə və natiqlik bacarıqlarının təkmilləşdirilməsidir.

Layihə çərçivəsində diplomatiyanın müxtəlif istiqamətləri, ictimai, hərbi, iqtisadi, mədəni və parlament diplomatiyası üzrə müxtəlif dövlət qurumlarının nümayəndələri, səfirlər, beynəlxalq ekspertlərlə görüşlər keçirilib.

Həmçinin layihə müddətində iştirakçılar tərəfindən elmi araşdırma işləri hazırlanıb.

Tədbirin sonunda layihə iştirakçıları sertifikatlarla təltif olunublar.

# Uşaqlar arasında virus xəstəlikləri artıb - Səbəblər



***Kliniki Tibbi Mərkəzin tabeliyində olan 2 saylı Klinik Uşaq Xəstəxanasına bu il virus xəstəlikləri ilə bağlı müraciət edənlərin sayı artıb.***

Xəstəxananın pediatr-infeksionisti Rəna Hüseynova Modern.az-a bildirib ki, uşaqlar arasında mövsümi xəstəliklər hər il görülsə də, pandemiya başlayandan müraciətlərin sayı daha da artıb.

Onun sözlərinə görə bunun əsas səbəblərindən biri isə uşaqların bağçalara, məktəblərə getməsidir:

"İndi sağlam uşaq da, xəstə uşaq da məktəbə, bağçaya gedir. Ona görə də xəstəlik çoxalır. Valideynlər xəstə uşaqları bağçaya, məktəbə göndərməməlidirlər".

R.Hüseynova qeyd edib ki, hazırda xəstəxanalara ən çox uşaqlar inaq (yuxarı tənəffüs yollarının, xüsusilə qırtlaq (səs tellərinin) və nəfəs borusunun iltihabı) səbəbindən müraciət edir:

"Uşaqlarda əsasən yüksək hərarət, öskürək, bəzən isə qusma, ishal müşahidə edilir. Çoxu bunu soyuqla əlaqələndirsə də, bu virusdur. Sadəcə bədəndə virus olduğu üçün soyuqdəymə ilə əlaqəli xəstəlik daha da ağırlaşır. Valideynlərin çoxu bu kimi hallarda uşaqları həkimə gətirmədən, evdə müalicə etməyə çalışırlar. Bununla isə uşağın vəziyyəti daha da ağırlaşa bilər. Xəstə uşağa mütləq həkim baxmalıdır. Həkim təyin etmədən uşaqlara antibiotik verilməsi yolverilməzdir".

Pediatr-infeksionist xəstələnən uşaqlara qulluq üçün tövsiyələrini də verib:

"Uşaqların qızdırması olarsa, ilk olaraq onlara "paracetamol" dərmanı vermək və çoxlu maye içirtmək lazımdır. Ən əsası isə valideynlər vaxt itirmədən yaşadıqları ərazi üzrə poliklinikalara müraciət edib, həkimlərdən məsləhət almalıdırlar.

Xəstə uşaqları daha çox geyindirmək də düzgün deyil. Bu tərləməyə və daha çox vəziyyətin ağırlaşmasına gətirib çıxara bilər.

Valideynlərə məsləhətim odur ki, uşaqların əllərini tez-tez yumasına, sıxlıq olan ərazilərdə olmamalarına diqqət etsinlər. Gigiyenik qaydalara və sosial məsafəyə əməl etməklə, uşaqların sağlamlığının qayğısına qalmaq mümkündür".

# Vətəni canından əziz bilən igid Ağamid



***Ağamid Şirzad oğlu Ağacəfərlinin tale yazısı Vətən yolunda şəhidlik zirvəsinə ucalmaq idi. Uca, vüqarlı dağların qoynuna sığınan Lerik şəhərində 1995-ci ildə dünyaya göz açan, indi isə adı bütün Azərbaycan xalqının dilində qəhrəmanlıq dastanına dönən Ağamid müstəqil həyata qədəm qoyanda bütün sevgisini, eşqini Vətən verir. Elə 25 yaşında Tanrıdan gələn bu ilahi sevgi onu əbədiyyətə qovuşdurur. Belə ki, İkinci Qarabağ müharibəsində Vətən naminə canından keçməklə zaman-zaman insanlara örnək olacaq şərəfli bir ömür yaşayır...***

El-obada mərdliyi, vətənpərvərliyi, həyatsevərliyi, dürüstlüyü ilə yaşıdlardan seçilən Ağamid 2013-ci ildə hərbi xidmətə yollanır. Uşaqlıqdan doğma Azərbaycanın hər qarış torpağına məhəbbət ruhunda boy atmış Ağamidin istəyini nəzərə alıb onu kəşfiyyat qrupuna yazırlar. O, ilk gündən layiqli övlad kimi Vətənə xidmət edir, kəşfiyyat bölüyünün şəxsi heyəti arasında keçirilən müxtəlif təlimlərdə, yarışlarda həmişə uğur qazanır. Bir neçə dəfə düşmənlə üz-üzə gəlir. Belə vaxtlarda göstərdiyi qəhrəmanlığı ilə sübut edir ki, özündən artıq sevdiyi Vətən uğrunda, millət yolunda hər an canından-qanından keçməyə, erməni dığalardan qisas almağa hazırdır.

Hərbi xidmətdən üzüağ, alnıaçıq qayıtdıqdan sonra Ağamid dinc əməkdən yapışır. Yaşamağı, həyatı çox sevsə də, ən böyük amalı müharibə meydanında düşmənlə döyüşüb Vətənini azad etmək olur. Məhz buna görə o, 2020-ci ilin sentyabrın 27-də başlayan İkinci Qarabağ müharibəsinə könüllü, gülə-gülə, "Mütləq qalib gələcəyik" deyib gedir. Bilir ki, düşmənin 30 il əsarətdə saxladığı Vətən torpaqların taleyi bu haqq savaşımızdan asılıdır.

Vətən sevdalısı Füzulidə, Qubadlıda torpaq uğrunda gedən ağır döyüşlərində kəşfiyyatçı kimi şücaət göstərir. Odun-alovun içinə girəndə düşmənin çox sayda əsgərini, döyüş texnikasını məhv edir. Hər dəfə belə ölüm-dirim savaşlardan qalib çıxanda daha da Vətənə ürəkdən bağlanır, onun yolunda can qoymağı özünə ən böyük şərəf bilir. İgid əsgər oktyabrın 26-da düşmən gülləsinə tuş gələndə son nəfəsdə "Müqəddəs Vətən torpaqları murdar düşmən ayağı götürməz. Qələbə bizimdir" deyib şəhidlik zirvəsinə ucalır. Beləcə canı-qanı bahasına yağıya layiqli dərs verən Ağamid öz neslin yox, böyük bir xalqın şərəf yerinə çevrilir.

Vətən müharibəsində qəhrəmanlıq göstərib tarix yazan oğlunu dövlət də ucalıqda saxlayır. Onu ölümündən sonra "Füzulinin azad olnmasına görə" və "Vətən uğrunda" medallarına layiq görür.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Samuxda yeni subartezian quyuları qazılır



***Samuxda torpaqların səmərəli suvarılması üçün təsərrüfatlararası və təsərrüfatdaxili kanallarda təmizləmə və beton üzlüyə alınma işləri davam etdirilir.***

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov "Unikal"a bildirib ki, rayonun 27856 hektar suvarılan torpaqlara Samux Suvarma Sistemləri İdarəsinin balansda olan 658 km təsərrüfatdaxili, 65.5 km təsərrüfatlararası kanallar vasitəsi ilə suvarma suyu verilir. Artıq, 65.5 km Allahdad, Xanarx, Dinaraj, Qarasaqqal,Qarabağlı, Salahlı, Yusifli kanallarda 312 min.m3 lildən təmizləmə işləri aparılıb. Rayon, kənd və qəsəbələrdə tərtib edilmiş qrafikə uyğun olaraq təsərrüfatdaxili kanallarda 154 min.m3 lildən təmizləmə işləri aparılıb və işlər davam etdirilir. Maşın mexanizmlər vasitəsi ilə kanallarda və çaylarda lildən təmizləmə işləri, məcra təmizləmə və selə qarşı aparılan tədbirlərlə yanaşı kanalların beton üzlüyə alınması da davam etdirilir. Artıq əsaslı təmir işləri aparılan Drenaj kanalının 1.1 km hissəsi beton üzlüyə alınıb, işlər tamamlanmaq üzrədir.

Suvarma suyunun yaxşılaşdırılması üçün cari ildə 24 ədəd Hidro Texniki Qurğu, 19 ədəd hidropost təmir edilib. Kanallarda və çaylarda 88 min.m3 sahilbərkitmə və selə qarşı torpaq işləri görülüb. Payızlıq əkinə başlayan fermerlərə məxsus 7790 ha taxıl, 710 ha xəsil, 800 ha yonca sahəsinin artıq 7660 ha taxıl , 710 ha xəsil, 785 ha yonca sahələri suvarılması başa çatıb və suvarılma davam etdirilir. Ölkə başçısının sərancamı ilə, 2021-ci il ərzində rayon ərazisində olan əkin sahələrinin suvarılmasının yaxşılaşdırılması üçün 5 ədəd subartezian quylarının əsaslı təmir işlərindən 3 ədədi təmir olunub və işlər davam etdirilir. Bu il 6 ədəd yeni subartezian quyularının qazılması da planlaşdırılıb.

Qarayeri qəsəbəsi, Hacallı, Çobanabdallı, Aşağı Ağasıbəyli, Qovlarsarı kəndələrində və Samux şəhərin də qazılıb istifadəyə veriləcək yeni subartezian quyuları 250 hektara yaxın əkin sahələrinin suvarma suyunu təmin edəcəkdir.

Qeyd edək ki, rayonun əsas su mənbələri, Kür, Gəncəçay, Qoşqar, Qavırlı çayları və Şəmkir maşın su kanalıdır. Suvarılan sahələrin, 10450 hektarı taxil, 6000 hektara yaxın yonca, 2500 hektar günəbaxan, 3200 hektardan çox həyətyani sahələr, 4000 hektara yaxın bağçılıq və meyvə tərəvəz, 50 hektar pambıq, 30 hektar çuğundur və 1300 hektardan çox sahə isə bostan-tərəvəz sahələridir.

# 140 cinayət işinə xitam verilib



***Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən prokurorluq orqanlarının fəaliyyətini əks etdirən rəqəmlər barədə kütləvi informasiya vasitələri və sosial şəbəkələrdə #gününrəqəmi həştəqi ilə məlumatlar yerləşdirilir.***

Baş Prokurorluqdan "Unikal"a verilən məlumata görə, bu günün rəqəmi 140-dır.

Belə ki, 2021-ci ilin dekabr ayının 1-dək prokurorluq və digər hüquq-mühafizə orqanları tərəfindən 140 şəxs barəsində amnistiya aktına əsasən cinayət işi üzrə icraata xitam verilmişdir. Prokurorluq orqanlarının fəaliyyətindəki bu və ya digər yeniliklərdən xəbərdar olmaq üçün sosial şəbəkə səhifələrinin izlənilməsi tövsiyə olunur.

# 137 şagird inklüziv təhsil alır



***Bakı şəhəri üzrə 5 ümumi təhsil müəssisəsində 137 şagird inklüziv təhsilə cəlb edilib.***

Bakı Şəhəri Təhsil İdarəsindən verilən məlumata görə, inklüziv təhsil sağlamlıq imkanları qismən məhdud uşaqlarla sağlam uşaqların eyni sinifdə təhsil almasına imkan yaradır.

Layihə həmin uşaqların cəmiyyətə daha rahat inteqrasiyasına nail olmaq məqsədlərinə xidmət edir.

## Qarabağ ərazisi döyüş meydanından böyük yenidənqurma məkanına çevrilib - Bisera Turkoviç

***Çox sevindirici haldır ki, Qarabağ ərazi döyüş meydanından böyük tikinti və yenidənqurma məkanına çevrilib.***

"Unikal" Trend-ə istinadən xəbər verir ki, bunu Azərbaycana səfərə gələn Bosniya və Herseqovinanın xarici işlər naziri Bisera Turkoviç Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov ilə birgə mətbuat konfransında deyib.

O qeyd edib ki, Bosniya və Herseqovina Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir və ölkəsinin parlamenti bununla bağlı qətnamə qəbul edib: "Azərbaycan da Bosniya və Herseqovinanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir", - deyə nazir bildirib.

## Rusiya yeni anti-dron yaradıb: Əsas hədəf "Bayraktar"dır

***İkinci Qarabağ müharibəsi zamanı Türkiyənin "Bayraktar" TB2 Pilotsuz Uçuş Aparatı (PUA) dünyanın diqqətini özünə çəkməyi bacardı. Azərbaycan ordusunun arsenalında olan bu PUA-lar qüsursuz işləyərək yüzlərlə düşmən mövqeyini uğurlu şəkildə məhv etdi.***

Müharibədən sonra isə əksər ölkələr məhz "Bayraktar"ların sayəsində Türkiyə hərbi sənayesinə marağı birə-beş artırdılar. Hazırda türk PUA-ları dünya reytinqində ön sıralarda qərarlaşır. Maraqlıdır ki, Türkiyə hərbi sənayesinin bu uğuru əksər böyük ölkələrdə, o cümlədən Rusiyada birmənalı qarşılanmır.

Rusiyalı mütəxəssilər artıq bir ildən çoxdur ki, hər vəchlə qarşısıalınmaz "Bayraktar"ları sıradan çıxara biləcək yeni silah axtarışına çıxıblar. Bu gün isə rusiya hərbi saytları bir neçə gün öncə sınaqdan keçirilmiş yeni silah haqqında maraqlı məqalə dərc ediblər. Yazıda qeyd edilir ki, tezliklə orduda bütün hücum dronları üçün kabusa çevriləcək kompleks peyda olacaq. AzVision.az məqalədən maraqlı hissələri oxuculara təqdim edir.

- Türk PUA-sı "Bayraktar" TB2 də həmin kompleksin qurbanları arasında ola bilər. "Orion" hücum PUA-sı 9M133FM-3 raketi ilə düşmənin pilotsuz təyyarələrini vura biləcək. Üstəlik, bu qurğu yerdən də işə salına bilər. Raketin uçuş məsafəsinin artırılması isə mobil anti-dronları 10 kilometrə qədər məsafədə yerləşdirməyə imkan verəcək. Bundan başqa, 7 kilometr hündürlükdə olan düşmənin bütün dronları kompleksin hədəfinə çevriləcək,- hərbi nəşr yazıb.

Məqalə müəllifi adı açıqlanmayan mənbələrə istinad edərək mütəxəssislərdən sitat gətirib. Onların sözlərinə görə, "Orion" pilotsuz uçuş aparatının radar stansiyası (RLS) həcminə görə kiçik olmaqla yanaşı yüngüllüyü ilə də seçilir.

- O, istənilən düşmən PUA-sını izləyə və onların zərbə məsafəsinə yaxınlaşması barədə xəbərdar edə biləcək. Yaxın gələcəkdə "Kornet" tank əleyhinə raket kompleksinin bu mobil radarla kombinasiyası PUA-ların məhvinə yönəlmiş unikal və ucuz sistem yaratmağa imkan verəcək. Belə bir PUA "qatili" müasir hücum dronlarından, o cümlədən Türkiyənin "Bayraktar"larından qorunmaq istəyən ölkələrə satıla bilər.

*Tural Tağıyev*

## Kirill Prezident İlham Əliyevi təbrik edib

***Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill Prezident İlham Əliyevə təbrik məktubu göndərib.***

"Unikal" AZƏRTAC-a istinadən bildirir ki, məktubda deyilir:

"Zati-aliləri, Möhtərəm İlham Heydər oğlu, Şəxsi həyatınızda əlamətdar gün - 60 illik yubileyiniz münasibətilə təbriklərimi qəbul edin.

Siz Azərbaycan Prezidenti vəzifəsində illər boyu səylə çalışaraq Qafqaz regionunda ictimai həmrəyliyin möhkəmlənməsinə sanballı töhfə verirsiniz. Sevindirici haldır ki, topladığınız qiymətli təcrübə respublikanızın xalqları üçün layiqli həyat şəraiti yaradılmasına və onların ahəngdar yaşayışına kömək edən mühüm strateji qərarlar qəbul etməyinizə imkan verir.

Rus Pravoslav Kilsəsinin Bakı Yeparxiyası ilə xoş qarşılıqlı münasibətə, həmçinin Azərbaycan, Rusiya və Ermənistanın dini liderlərinin Qarabağda sülhün bərqərar olmasına yönəlmiş birgə səylərinə göstərdiyiniz diqqətə görə Sizə minnətdaram.

Sizə möhkəm cansağlığı, firavanlıq və ali vəzifənizdə Tanrının bundan sonra da yardımçı olmasını arzu edirəm".

## "Qarabağın yenidənqurma məkanına çevrilməsi sevindirici haldır" - Nazir

***"Qarabağın döyüş meydanından böyük tikinti və yenidənqurma məkanına çevrilməsi çox sevindirici bir haldır".***

Bunu Bosniya və Herseqovinanın xarici işlər naziri Bisera Turkoviç azərbaycanlı həmkarı Ceyhun Bayramovla birgə mətbuat konfransında deyib.

O qeyd edib ki, Bosniya və Herseqovina Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir, ölkəsinin parlamenti bununla bağlı qətnamə qəbul edib: "Azərbaycan da Bosniya və Herseqovinanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir", - nazir bildirib.

# "Avropa hər zaman yalnız özünə işləyib" - Denis Bukonki

***"Belarus-Azərbaycan münasibətlərinin hazırkı vəziyyətini bu gün birmənalı şəkildə müsbət qiymətləndirmək olar. Bu, həm əhalinin rifahına, tərəqqisinə çalışan, həm də geosiyasi avantüra planları qurmayan dövlətlərimizin qarşılıqlı maraqları ilə əlaqədardır. Eyni zamanda, iki ölkə liderləri arasında müsbət münasibətlər formalaşıb və bunu əsl dostluq adlandırmaq olar".***

Bu sözləri AzVision.az -a belaruslu politoloq Denis Bukonki deyib. Onun fikrincə, yaxşı siyasi münasibətlər iqtisadi sahədə məhsuldar qarşılıqlı fəaliyyətə aparmalıdır. Bizim ikitərəfli inkişaf üçün kifayət qədər potensialımız var:



- Belarusun Azərbaycana, Azərbaycanın isə ölkəmizə təklif edəcəyi şeylər yetərincədir. Bütün bunlar qarşılıqlı fayda və dövlətlərimizin potensialının artırılması əsasında baş verməlidir. Belarus həm Avropa bazarına, həm də xarici bazarlara yönəlmiş birgə müəssisələrin (BM) yaradılması təcrübəsinə malik ölkə kimi özünü təsdiqləyib. Belarus-Çin və Belarus-Avstriya birgə müəssisələri artıq öz yüksək potensialını nümayiş etdiriblər. Belarus və Azərbaycan iqtisadi sahədə ikitərəfli münasibətlər qurulmasında bu modeldən daha səmərəli istifadə edə bilərlər.

***- Regionda bütün nəqliyyat kommunikasiyaları blokdan çıxarıldıqdan sonra Belarusun Cənubi Qafqazın nəqliyyat sisteminə inteqrasiyası perspektivi necə olacaq? Minsk regionun nəqliyyat infrastrukturunun inkişafında iştirak etməyə hazırdırmı?***

- Tranzit ölkə kimi Belarus Respublikası üçün nəqliyyat dəhlizlərinin, xüsusən də birbaşa yolayrıcında yerləşən dəhlizlərin normal fəaliyyəti son dərəcə vacibdir. Cənubi Qafqaz "Şimal-Cənub" nəqliyyat dəhlizinin ayrılmaz elementidir, bundan əlavə, Belarusun bilavasitə iştirak etdiyi "Kəmər və Yol" kimi irimiqyaslı layihənin halqalarından hesab olunur. Regionunuzda kommunikasiyaların tam blokdan çıxarılması Avrasiya İqtisadi Birliyi inteqrasiya layihəsinə çox müsbət təsir göstərəcək. Belarus Bakının bu məsələni həll etmək arzusunda olduğunu görür və yardım təklif etməyə hazırdır. Minsk kommunikasiya xətlərinin yaradılmasında dəyərli təcrübəyə malikdir və həm yeni nəqliyyat arteriyalarının çəkilişində, həm də onların yaradılması üçün lazımi nəqliyyat və texnologiyaların təchizatında kömək etməyə hazırdır.

***- Qərbin təzyiqləri, Amerikanın Belarusa qarşı sanksiyaları Azərbaycan-Belarus münasibətlərinə necə təsir edir?***

- Qərbin təzyiqləri Belarusla Azərbaycan arasındakı münasibətlərə sözsüz ki, təsir edir. Minskin Şərq Tərəfdaşlığı təşəbbüsündə iştirakını dayandırmaq məcburiyyətində qaldığı bir şəraitdə bu çərçivədə qarşılıqlı fəaliyyət təbii olaraq məhdudlaşdırıldı. Eyni zamanda, məhdudiyyətlər Belarusu AB-yə alternativ regionlardan olan tərəfdaşlarla münasibətləri daha fəal inkişaf etdirməyə vadar etdi. Bu, Belarus-Azərbaycan əməkdaşlığı, o cümlədən Belarus bazarında Avropa mallarınının əvəz olunması baxımından yeni imkanlar açır.

***- Belarusun xarici işlər naziri Vladimir Makey "Şərq Tərəfdaşlığı" sammitinin yekun bəyanatında Belarusla bağlı tutduğu mövqeyə görə Azərbaycana minnətdarlığını bildirib. Bunu necə qiymətləndirirsiniz? Şərq Tərəfdaşlığı ölkələrinin AB-yə qoşulma perspektivi varmı?***

- Belarusla bağlı açıq-aşkar siyasiləşdirilmiş bəyanata qoşulmaqdan imtinaya rəsmi Minsk gözlənilən müsbət reaksiyanı verib. Belarusluların nəzərində Azərbaycan müstəqil siyasət yürüdən, xarici təsirlərə qarşı çox yüksək immunitetə malik suveren dövlətdir. Hesab edirəm ki, beynəlxalq məkanlarda bir-birini dəstəkləmək, geosiyasi avantüralarda iştirakdan imtina etmək ölkələrimizin maraqlarına uyğundur.

Şərq Tərəfdaşlığı ölkələrinin AB-yə üzv olmaq perspektivi yoxdur, bu, təşəbbüsün nizamnamə sənədlərində öz əksini tapıb və Avropa liderləri tərəfindən dəfələrlə səsləndirilib. Hazırda bir sıra Balkan ölkələrinin Avropa İttifaqına qoşulması imkanları nəzərdən keçirilir. Ancaq bu, min səhifədən çox sənəddə göstərilən bütün şərtləri yerinə yetirmək üçün çox uzun və zəhmətli bir prosesdir. Eyni zamanda, AB-yə üzvlük bir sıra dövlətlərin hökumətlərini manipulyasiya etmək məqsədi güdür.

Gəlin realist olaq. Avropa hər zaman yalnız özünə işləyib. Onlar bizdən yalnız insan, təbii və intellektual resurslar umurlar. Bizim ərazimiz onlara məhsullarının satış bazarı kimi lazımdır. Lakin Brüsseli Bakının, Kişinyovun və ya digər hər hansı Şərq Tərəfdaşlığı ölkəsi paytaxtının AB-də səsvermə hüququna malik olması maraqlanmır.

# 11 idman növündə 19 qayda pozuntusu



***Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) 2021-ci il ərzində 1588 test götürüb.***

Bu barədə AMADA-nın direktoru Şəfəq Hüseynli ilin yekunlarına dair onlayn mətbuat konfransında bildirib.

Bunlardan 1450-si milli test proqramı əsasındadır. Müsabiqə zamanı 558 test imtahanı keçirilib. Sınaqların 88 faizi Bakıda, 12 faizi isə respublikanın regionlarında aparılıb. Yetkinlik yaşına çatmayan idmançılardan 384, paralimpiyaçılardan 26 test götürülüb.

İl ərzində 11 idman növündə 19 iş üzrə icraat aparılıb ki, onlardan 6 iş ötən il, 13 iş bu il qəbul olunub. Ümumilikdə 9 qərar qəbul edilib. 18 halda idmançılar anabolik steroidlər qəbul ediblər. Bir idmançı antidopinqdən bəraət aldığından, onun məsələsinə xitam verilib. 18 qayda pozuntusundan ən çox pozuntu paurliftinqdə qeydə alınıb - 5. Güləş, velosiped və basketbolda 2, para-atletikada, futbol, sambo, karate, boks, cüdo və para-cüdoda 1 qayda pozuntusu olub. Bu il icraatda olan işlərdən basketbol, futbol və sambo idman növləri üzrə hər biri 1 iş olmaqla 3 iş üzrə qərar verilib. Basketbol və samboda sanskiya qərarı qəbul edilib, futboldakı iş üzrə isə xitam qərarı verilib.

50 məkan məlumatı xətası aşkarlanıb. AMADA-nın tədqiqat şöbəsi 368 araşdırma aparıb. Qurumun əməkdaşları bu il 23 yerli, 7 beynəlxalq səviyyəli yarışda iştirak edib. Tokio-2020 Yay Olimpiya Oyunlarında da AMADA-nın iki əməkdaşı dopinq-testlərdə iştirak edib.

Tədqiqat üçün AMADA-ya daxil olan məlumatların 12 faizi qurumun elektron ünvanı vasitəsilə, 65 faizi rəsmi saytda anonim məlumat formasında əldə edilib.

# AMADA-nın 5 yaşı tamam olur

***"AMADA-nın yaranmasının 5 illiyini qeyd edirik".***

bu fikirləri Azərbaycan Milli Antidopinq Agentliyinin direktoru Şəfəq Hüseynli (AMADA) 2021-ci ilin yekunlarına həsr olunmuş mətbuat konfransında deyib.



AMADA rəsmisinin sözlərinə görə, hesabat dövrü ərzində 6 260 dopinq-testi həyata keçirilib: "Bunlardan 5 400-ü milli test proqramında gerçəkləşib".

Ş. Hüseynli bildirib ki, fəaliyyət müddətində 76 antidopinq qayda pozuntusu aşkarlanıb: "2016-cı ildə antidopinq qayda pozuntuları 4,5 faiz azalıb. 2021-ci ildə isə bu rəqəm 0,2 faiz olub. 2013 - 2016-cı illərdə Azərbaycan idmançıları beynəlxalq arenada 40, 2017 - 2021-ci illərdə isə 21 qayda pozuntusuna yol veriblər".

# 2021-ci ilin rəmzi komandası açıqlandı

***Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyası 2021-ci ilin dünya üzrə rəmzi komandasını açıqlayıb.***

Rəmzi heyətdə aşağıdakı futbolçulara yer verilib:

Qapıçı: Canluici Donnarumma (İtaliya /"Milan"/PSJ)

Müdafiəçilər: Alfonso Deyvis (Kanada/"Bavariya"), Leonardo Bonuççi (İtaliya/ "Yuventus"), Ruben Dias (Portuqaliya/ "Mançester Siti"), Əşrəf Hakimi (Mərakeş/ "İnter"/PSJ)

Yarımmüdafiəçilər: Jorjinyo (İtaliya/ "Çelsi"), Kevin de Bruyne (Belçika/ "Mançester Siti"), Lionel Messi (Argentina/"Barselon"/PSJ)

Hücumçular: Kriştiano Ronaldo (Portuqaliya/ "Yuventus"/"Mançester Yunayted"), Robert Levandovski (Polşa/"Bavariya"), Kilian Mbappe (Fransa PSJ)




# Millimizin rəqibi Norveç və Finlandiya ilə qarşılaşacaq

***Millimizin UEFA Millətlər Liqasındakı rəqiblərindən olan Slovakiya yığması 2 yoldaşlıq oyunu keçirəcək.***

Qol.az Slovakiya Futbol Federasiyasının saytına istinadən xəbər verir ki, Ştefan Tarkoviçin baş məşqçi olduğu komanda 2022-ci il martın martın 25-də Norveçlə, 4 gün sonra isə Finlandiya ilə üz-üzə gələcək. Qarşılaşmalar müvafiq olaraq Norveçin paytaxtı Osloda və İspaniyanın Mursiya şəhərində oynanılacaq.



Qeyd edək ki, Azərbaycan millisi Slovakiya ilə ilk oyununu 2022-ci il iyunun 10-da Bakıda, növbəti görüşü isə sentyabrın 22-də səfərdə keçirəcək.

# İbrahimoviç bu oyunu buraxacaq

***"Milan"ın futbolçusu Zlatan İbrahimoviç A seriyasının 19-cu turunda "Empoli" ilə matçı buraxacaq.***



"Unikal" klubun mətbuat xidmətinə istinadən xəbər verir ki, isveçli hücumçu zədələnib və bir neçə gün yaşıl meydanlardan uzaq qalacaq.

Qeyd edək ki, İbrahimoviç bu mövsüm A seriyasında 11 matçda 7 qol vurub.

Xatırladaq ki, bu gün keçiriləcək "Empoli" - "Milan" görüşü Bakı vaxtı ilə saat 23:45-də başlayacaq.

# Qriqorçuk kitab yazdı

***"Qəbələ"nin sabiq baş məşqçisi Roman Qriqorçukun avtobioqrafik kitabı işıq üzü görüb.***

Bu barədə 56 yaşlı ukraynalı mütəxəssisin özü "meta-ratings" saytına müsahibəsində deyib. O, "Üç ölkənin çempionu" adlı kitabının 1000 nüsxə ilə çap olunduğunu, bir gündə satılıb qurtardığını bildirib.

Qriqorçuk öz kitabında məşqçilik karyerasının Azərbaycan dövrünə də yer ayırıb.

Xatırladaq ki, Roman Qriqorçuk 2015-2018-ci illərdə "Qəbələ"yə başçılıq edib. Təcrübəli mütəxəssis Latviyanın "Ventspils", Qazaxıstanın "Astana" və Belarusun "Şaxtyor" (Soliqorsk) komandalarının sükanı arxasında ölkə çempionluğunu qazanıb.

# Mahir Qurban Qurbanovla görüşdü - "Qarabağ"a qayıdır?

***"Legiya"da çıxış edən millimizin üzvü Mahir Emreli bu gün sabiq klubu "Qarabağ"ın bazasında olub.***

Qol.az-ın əldə etdiyi məlumata görə, o, Ağdam təmsilçisinin baş məşqçisi Qurban Qurbanovla görüşüb.İstisna olunmur ki, millimizin üzvü bundan sonra karyerasını hazırkı mövsümün sonuna qədər icarə əsasında "Qarabağ"da davam etdirsin.

"Legiya" fanatlarının Ekstraklasanın 18-ci turunda "Visla"ya 0:1 hesablı məğlubiyyətdən sonra komandanın bəzi legioner futbolçularına hücumu nəticəsində başından xəsarət alan 24 yaşlı hücumçu Polşa təmsilçisindən ayrılmaq fikrindədir.

Qeyd edək ki, M.Emreli iyunda "Legiya" ilə 3 illik müqavilə imzalayıb.

# "Fənərbaxça" 9 nəfərlə bacarmadı

***Türkiyə Superliqasında 18-ci turun oyunları davam edir. Növbəti oyun günündə dörd qarşılaşma keçirilib.***

"Fənərbaxça" səfərdə "Fatih Karagümrük"lə qarşılaşıb. Meydan sahiblərinin iki futbolçusu ilk hissədə qırmızı vərəqə alsa da, "Fənərbaxça" bundan istifadə edə bilməyib. Oyun 1:1 hesabı ilə yekunlaşıb.

Türkiyə Superliqası, 18-ci tur

"Sivasspor" - "Rizəspor" - 1:1

Qol: Kayode, 72 - Pohyanpalo, 74.

"Hatayspor" - "Konyaspor" - 1:3

Qol: Əl Kaabi, 3 - Mpoku, 29; 54. Koka, 90+2.

"Qaziantep" - "Alanyaspor" -2:1

Qol: F.Soyalp, 56. Dyedyu, 78-öz qapısına - Novais, 62.

"Fatih Karagümrük" - "Fənərbaxça" - 1:1

Qol: Peşiç, 31 - M.Özil, 40-pen.

Qırmızı vərəqələr: Bekaroğlu, 37, Erkin, 38

# 2.1 milyon avro məbləğində cəriməsi ləğv olundu

***İspaniyanın Ali Məhkəməsi "Barselona"nın müdafiəçisi Jerard Pikeyə kəsilmiş 2.1 milyon avro məbləğində cəriməni ləğv edib.***

Qol.az xəbər verir ki, bu barədə "Marca" nəşri məlumat yayıb. Futbolçu 2008-2010-cu illər arasında vergi borcuna görə cərimələnmişdi. Məhkəmə onun vergi ödəməkdən yayınmasından şübhələnsə də, 34 yaşlı oyunçu günahsız olduğunu sübut edə bilib. Qeyd edək ki, Pike 2008-ci ildən "Barselona"da oynayır.